www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21-22 noyabr 2015-ci il Şənbə № 259 (6287) Qiyməti 40 qəpik

Xəbər

## Yeni ildə əfv olacaq

yazısı səh.2-də

Gündəm

### Gələn həftə qalmaqallı həbslərin olacağı gözlənilir



Generalların poqonlarının sökülməsi üçün təqdimat hazırlanır

yazısı səh.5-də

Dünyanı qorxuya salan terrorçuların "pul kisəsi" kəsilməsə...

# İŞİD-ə AZƏRBAYCANDAN KİMLƏR PUL GÖNDƏRİB - TƏFSİLAT

Rusiya nəşri Azərbaycandan İŞİD terror qruplaşmasına pul köçürmələrinin qeydə alınması barədə sensasion xəbər yayıb; rəsmi Bakı hər hansı bir terror təşkilatına göndərildiyi şübhəsi olan ən cüzi məbləği belə ciddi araşdırmalıdır; Avropadakı teraktlar göstərdi ki, bu terror təşkilatının qanlı ideolojisini daşıyan bir nəfər belə istənilən ölkə üçün ciddi təhlükədir...




yazısı səh.8-də

"Üsyankar səfir"in hakimiyyəti dəyişə biləcəyinə inanan yoxdur
yazısı səh.3-də

Müxalifət Konstitusiya Məhkəməsindən nə gözləyir...
yazısı səh.6-da

General Hilal Əsədovun xanımının səsini gizli yazıblar?
yazısı səh.7-də

İŞİD indi də ABŞ-ı hədəfə aldı - bizim ölkəmiz də təhlükədədirmi?
yazısı səh.10-da

Azərbaycanlı "qanuni oğru"nu kim öldürtmək istəyib - yeni savaş başlayır
yazısı səh.12-də

On ayda ev bazarında 26 faiz ucuzlaşma olub
yazısı səh.11-də

Rəsmi Bakıdan Qarabağa dair qəti mövqe
yazısı səh.13-də

Tutulan iri məmurları Kürdəxanıda nə gözləyir...
yazısı səh.11-də

Gəncədən avtobusla Bakıya 8 kilo nəşə gətirdi və tutuldu
yazısı səh.14-də

Bütün ailə üzvlərini itirən 26 yaşlı gənc yoxa çıxıb
yazısı səh.14-də

Türkiyə tarixində ən böyük narkotik əməliyyatı keçirildi
yazısı səh.2-də

## Tiflisdən Bakıya qaz şantajı - yeni gəlişmə

Prezidentin Gürcüstan səfəri də qonşu ölkəni işğalçı Ermənistan vasitəsilə İran qazı almaq planlarından çəkindirməyib; rusiyayönlü "boz kardinal"ın israrı Azərbaycan-Gürcüstan münasibətlərində soyuqluğa gətirə bilər...

yazısı səh.9-da



*Siyavuş Novruzov:*

**"Həbslərdən başqaları da ibrət dərsi götürməlidir"**

yazısı səh.5-də



*Qabil Hüseynli:*

**"Eldar Sabiroğlu "mahmudovçu" qrupun üzvüdür"**

yazısı səh.3-də



*Pənah Hüseyn:*

**"İnqilablar bir qayda olaraq daxildən olur..."**

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 259 (6287) 21 noyabr 2015



## Amerika-Azərbaycan Ticarət Palatası İlham Əliyevə mükafat verdi

**Amerika-Azərbaycan Ticarət Palatası ("Amcham Azerbaijan") prezident İlham Əliyevi "Leadership" mükafatı ilə təltif edib.**

*"APA-Economics"in xəbərinə görə, mükafat ölkə başçısının "Amcham-Azerbaijan"a göstərdiyi dəstəyə görə verilib.*

Mükafat prezident İlham Əliyevin nümayəndəsi qismində çıxış edən maliyyə naziri Samir Şərifova təqdim olunub.

"Bu palatanı təsis edən gündən ulu öndər Heydər Əliyev bizə daim dəstək olub. Eyni münasibəti biz prezident İlham Əliyevdən gördük", - deyə palatanın təsisçisi Reza Veziri deyib.

Öz növbəsində S. Şərifov qeyd edib ki, prezident İlham Əliyev "bu şərəfli mükafatı qəbul etmək üçün tapşırıq verib". Bundan sonra mükafat təqdim edilib.

## Rövşən Əkbərov Bakı korpusuna gətirildi

**Müdafiə Naziriliyində kadr dəyişikliyi olub. Hərbi mənbələrdən musavat.com-a daxil olan məlumata görə, rotasiya qaydasında Şəmkir korpusunun komandiri Rövşən Əkbərov Bakı korpusuna, bu korpusun komandiri Xəqani Cəbrayılov Şəmkir korpusuna, Mayis Məmmədov isə Beyləqan korpusuna komandir teyin olunublar.**

Qeyd edək ki, R.Əkbərov əvvəllər də Bakı korpusunun komandiri olub.

❑ E.Hüseynov

## Sevgilisini öldürən gəncə 20 il həbs verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində Aytac Babayevanı öldürməkdə təqsirləndirilən Gürcüstan vətəndaşı İzzət Hüseynovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Hakim Tamella Nəsrullayevanın sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Məhkəmənin hökmü ilə İ.Hüseynov 20 il müddətinə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, ötən məhkəmə iclasında dövlət ittihamçısı İ.Hüseynovun 20 il müddətinə azadlıqdan məhrum olunmasını, A.Babayevanın anası isə ona ömürlük həbs cəzası verilməsini istəyib.

Qeyd edək ki, bu il aprel ayının 29-da Nizami rayonunun Bəhruz Nuriyev küçəsində İzzət Hüseynov sevdiyi qızı - 1998-ci il təvəllüdlü, 58 saylı orta məktəbin 11-ci sinif şagirdi olan Aytac Babayevanı qətlə yetirib. Hadisə sevgililər arasında yaranan şəxsi münasibətlər zəminində baş verib.

## 50 milyon dollar borcu olan iş adamının həbs müddəti uzadılıb

**"Azərbaycan Beynəlxalq Bankı" ASC-dən kredit götürərək qaytarmamaqda günahlandırılan "City Developer" MMC-nin direktoru Ratmir Bəkirov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb.**

"Report"un əldə etdiyi məlumata görə, dünən xəstəxanaya yerləşdirilmiş iş adamının işinə Nərimanov Rayon Məhkəməsində baxılıb.

Prosesdə iş adamı şəxsən özü iştirak edib. Məhkəmə onun barəsində seçilmiş həbs-qətimkan tədbirinin üç ay müddətinə artırılması ilə bağlı qərar qəbul edib.

Qeyd edək ki, R.Bəkirov ötən gün Penitensiar Xidmətin Müalicə Müəssisəsinə yerləşdirilib.

O, fəaliyyətini dayandırmış "Simurq" klubunun prezidenti Anar Bəkirovun atasıdır.

Xatırladaq ki, R.Bəkirovun "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə təxminən 50 milyon dollar borcunun olduğu bildirilir.

Ötən iki gündə 14 iş adamı barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti üç ay uzadılıb. Saxlanılan şəxslərin hər biri barəsində Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanıb.

"Qaya Mətbuat Yayımı" MMC!
- **İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.40 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Yeni ildə əfv olacaq

### Hakimiyyətin siyasi məhbus problemini həm də məhkəmə qaydasında həll edəcəyi bildirilir

**Yeni ildə əfv sərəncamının veriləcəyi barədə xəbərlər yayılıb. Sərəncamla bir çox məhbusun, xüsusilə siyasilərin bir qisminin azad ediləcəyi bildirilir. Artıq əfv istiqamətində hazırlıqlar gedir.**



Artıq bununla bağlı Əfv Komissiyasının üzvü, deputat Elmira Axundova məlumat verib: "Mənim ünvanıma bütün respublikadan ərizələr daxil olur. Yaydan indiyə qədər 50-60 ərizə qəbul etmişəm. Amma Əfv Komissiyasının iclası hələ olmayıb. Əsasən cinayəti ağır olmayan, cəzasının yarısını çəkənlərin və digər əfv olunması münasib olan məhbusların ərizələri Əfv Komissiyasına göndərilir".

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Novella Cəfəroğlu da bildirib ki, əfv fərmanı ilə bağlı gözləntiləri var:** "Biz Əfv Komissiyasına 27 nəfərin siyahısını təqdim etmişik. Hazırlanan siyahıda əsasən məhkəməsi düzgün aparılmayanların və cəzasını yarıya kimi çəkən məhbusların adları var".

"Yeni Müsavat" isə xəbər verir ki, hökumət siyasi məhbusları azad etmək üçün tamam fərqli taktikadan istifadə edəcək. Bu, əfvlə yanaşı, məhkəmədən azad etmə də olacaq. Hüquq müdafiəçisi Arif Yunus təcrübəsində olduğu kimi. Hakimiyyət ölkədəki siyasi məhbus gərginliyini dəf etmək, eləcə də Qərbin xüsusi olaraq tələb etdiyi şəxsləri azad etmək üçün ənənədən uzaqlaşacaq. Yəni bu dəfə məhkəmə hakimiyyətinin əli ilə şərti azadlıq, ev dustaqlığı kimi cəzalar veriləcək. Məqsəd Qərb qarşısında geri çəkilmə havasını yaratma ilə yanaşı, onunla uzlaşma, eləcə də ölkədəki islahat əhvalını gücləndirməkdir.

Məlumdur ki, son dövrlər ölkədə gedən səs-küylü həbslər, insanların qəzəbinə səbəb olan məmurların "vurulması", istintaqa cəlb olunması ictimai rəydə müsbət əhval yaradıb. Hətta hakimiyyətə neqativ münasibəti ilə fərqlənən şəxslər belə bu addımları obyektiv şəkildə qiymətləndirir, təqdir edirlər. Gözləniləndir ki, hakimiyyət bu münasibəti daha da yaxşılaşdırmaq üçün ölkədəki digər bir problemi - siyasi məhbus problemini dediyimiz məhkəmə yolu ilə həll edəcək. Siyasi kluarlarda dolaşan xəbərlərə görə, məhkəmə yolu ilə azadlığa buraxılacaq növbəti siyasi məhbuslardan biri də Rauf Mirqədirov olacaq.

❑ Sevìnc TELMANQIZI



## Leyla Yunus həbsdən sağ çıxacağına inanmır

### "Məni həbsdə saxlamaq üçün Arif Yunusu buraxdılar"

**Həbsdə olan hüquq müdafiəçisi Leyla Yunusun səhhəti ağır olaraq qalır. Bu barədə Meydan TV-ni məlumatlandıran hüquq müdafiəçisinin yaxınları bildirib ki, alman həkimi Vittin göndərdiyi dərmanlar hələ də Leyla Yunusa verilməyib.**

"Hazırda Leyla Yunusun həzm prosesi tamamilə pozulub, o, həbs olunanda 62 kiloqramdan artıq çəkiyə malik idisə, indi 40 kiloqrama yaxındır. Dəfələrlə vəkilləri və yaxınlarının tələbinə baxmayaraq, hələ də tibbi hissəyə köçürülməyib. Leyla Yunus düşünür ki, onu həbsdə saxlamaq üçün həyat yoldaşı Arif Yunusu buraxdılar",-deyə yaxınları bildirib.

O, vəziyyətinin ağırlığı baxımından həbsdən sağ çıxacağına inanmır. Çünki qaraciyər və şəkər xəstəlikləri günü-gündən onun durumunu ağırlaşdırır.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə əmlakları müsadirə olunmaqla Leyla Yunus 8 il 6 ay, Arif Yunus isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Ötən həftə Bakı Apelyasiya Məhkəməsi Arif Yunus haqda həbs-qətimkan tədbirinin çıxarılması barədə qərar çıxarıb.



## Türkiyə tarixində ən böyük narkotik əməliyyatı keçirilib

**Türkiyə Daxili İşlər Nazirliyinin, Hatay bölgəsində təşkil etdiyi iki cinayət axtarış əməliyyatında, 10 milyon 926 min ədəd narkotik həb ələ keçirilib. Türkiyənin Milli Təhlükəsizlik Nazirliyinin Narkotik Əleyhinə Mübarizə İdarəsinin rəhbərliyi beynəlxalq səviyyədə istintaq işi başladıb. Narkotik ticarətində şübhəli bilinən qruplar təqib edilib və noyabrın 18-də, yerli vaxtla saat 18:30-da polis qüvvələrinin iştirakı ilə əməliyyat keçirilib.**

Narkotik axtarışında istifadə olunan itlərin də iştirak etdiyi əməliyyatda, Suriyada emal edilərək, Türkiyə üzərindən dəniz yolu ilə Körfəz ölkələrinə göndərilməsi nəzərdə tutulan təxminən 1300 yük maşını, 7 milyon 326 min ədəd narkotik həb ələ keçirilib.

Əməliyyat çərçivəsində həmçinin noyabrın 19-da yerli vaxtla saat 18.00-də yenə də Hatay bölgəsinin mərkəzində bir anbarda qəfil axtarış-əməliyyatı keçirilib. Nəticədə qablaşdırılmış və satışa hazır halda olan 3 milyon 600 min ədəd narkotik həb tapılıb.

Polis basqınında cinayətkar qruplaşmanın təşkilatçısı və Suriyada istehsal olunan narkotik həbləri Türkiyə üzərindən nəqlini koordinasiya edən Suriya əsilli bir şəxslə, 2 nəfər Türkiyə vətəndaşı nəzarətə alınıb.

10 milyon 926 min (1 ton 831 kiloqram) ədəd narkotik həbin ələ keçirilməsi ilə nəticələnən bu əməliyyat bu günə qədər Türkiyə tarixində ən böyük narkotik əməliyyatı hesab edilir.

❑ Nərgìz LÌFTÌYEVA

## Rusiya Xəzərdən Suriyaya kütləvi raket zərbələri endirdi

**Rusiyanın Hərbi-Dəniz Qüvvələrinin Xəzər donanmasının gəmilərindən Suriyadakı İŞİD terror qruplaşmasının mövqelərinə yeni raket zərbələri endirilib. Virtualaz.org saytı xəbər verir ki, bu barədə Rusiyanın müdafiə naziri Sergey Şoyqu açıqlama verib.**

S.Şoyqu bu barədə Rusiya Silahlı Qüvvələrinin Ali Baş Komandanı, prezident Vladimir Putinə məruzə edərkən deyib ki, terrorçuların 7 hədəfinə zərbə endirilib.

"Noyabrın 20-də Rakka, İdlib və Hələb şəhərlərindəki 7 hədəfə 18 qanalı raket zərbəsi endirilib. Bütün hədəflər vurulub" - deyə Şoyqu bildirib.

## Həsən Kərimov vəfat etdi

**AXCP Ali Məclisinin sədri Həsən Kərimov vəfat edib. Partiya sədrinin müavini Fuad Qəhrəmanlının APA-ya verdiyi məlumata görə, Həsən Kərimov dünən ürək tutmasından evində dünyasını dəyişib. Qeyd edək ki, 61 yaşlı Həsən Kərimov uzun müddətdir ki, ürək problemindən əziyyət çəkirdi.**

Allah rəhmət eləsin!



## Hüquq müdafiəçisinin anası prezidentə əfv müraciəti etdi

**Həbsdə olan hüquq müdafiəçisi Taleh Xasməmmədovun anası Gülbuta Xasməmmədova prezident İlham Əliyevə əfv müraciəti ünvanlayıb.**

**Müraciətdə deyilir:**

- Cənab prezident İlham Əliyev!

Mən hüquq müdafiəçisi Taleh Xasməmmədovun anası və bu ölkənin sadə vətəndaşıyam. Xatırladım ki, oğlum Taleh bəzi məmurların sifarişi əsasında CM-in 221.2-ci (xuliqanlıq, təkrarən törədildikdə) maddəsi ilə həbsdədir. Mən və Göyçay rayon ağsaqqallarından 350 əlli nəfəri Taleh Xasməmmədovun günahsız olması barəsində Sizə mətbuat vasitəsilə müraciət etmişik. Cənab Prezident, Talehi həbs etdirən məmurlar Sizin apardığınız siyasi iradəyə zidd hərəkət etməklə yanaşı, ölkəmizin nüfuzuna dünya arenasında ziyan vuran şəxslərdir. Mən Sizi əmin edirəm ki, oğlum tam günahsızdır və o, bəzi yerli məmurlar tərəfindən şərlənərək həbs edilib. Oğlum Taleh xalqını, ölkəsini sevən bir insandır. Heç zaman dövlət və dövlətçilik əlehinə olmamışdır və bir ana kimi mən buna yol verməram.

Talehin səhhətində ciddi problemlər var. Həkim müayinəsi zamanı onun yaşamasına əngəl olan xəstəlikləri təsdiqlənib, əgər Taleh həkim nəzarəti altında olmasa biz onu fiziki olaraq itirə bilərik.

Cənab İlham Əliyev, bir ana kimi, oğlumun xəstəliyini, onun iki azyaşlı qızlarını və ailəmizin düşdüyü çətinliyi nəzərə almanızı və Taleh Xasməmmədovu əfv etmənizi Sizdən xahiş edirəm. Ümid edirəm ki, bir ananın, iki azyaşlı nəvələrimin xahişini eşidib ailəmizi sevindirəcəksiniz. Öncədən Sizə təşəkkür edirəm.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Ölkə



# "Üsyankar səfir"in hakimiyyəti dəyişəcəyinə inanan yoxdur

**Azərbaycanın Avropa Şurasında daimi nümayəndəliyinin keçmiş rəhbəri, hazırda Avropada siyasi sığınacaq alaraq yaşayan Arif Məmmədov Azərbaycana gəlib hakimiyyəti dəyişəcəyini bəyan edib. Bu ilin əvvəlindən Azərbaycan iqtidarına qarşı sərt ittihamları ilə ictimaiyyətə tanınan keçmiş səfir vaxtaşırı rəsmi Bakını hədələyən açıqlamalar verir. Bəzi hallarda isə özünü yeni müxalifət lideri elan etməkdən çəkinmir. Son açıqlamasında isə bildirib ki, hakimiyyəti dəyişdirmək üçün gələcək: "Biz hakimiyyət dəyişəndən sonra yox, daha tez ölkəyə dönəcəyik. Elə hakimiyyəti dəyişdirmək üçün".**

## Sərdar Cəlaloğlu: "Arif Məmmədov Azərbaycanda yaşamadığından qeyri-real bəyanatlar verir"

Qeyd edək ki, Arif Məmmədov xaricdə oturub özünü müxalifət lideri elan edən və hakimiyyəti dəyişəcəyini bəyan eləyən ilk şəxs deyil. Ondan öncə bu tip bəyanatlarla keçmiş spiker Rəsul Quliyev və kinorejissor Rüstəm İbrahimbəyov da çıxış edərdilər. Bir sözlə, Arif Məmmədovun gah "ağ marş" elan edib xalqı meydanlara çağırması, "siz çıxın meydanlara, mən gələcəm", "hakimiyyəti dəyişəcəm" kimi bəyanat və müraciətləri Rəsul Quliyevin və Rüstəm İbrahimbəyovun timsalında tanış mənzərədir.

**ADP sədri Sərdar Cəlaloğlu bu barədə danışarkən bildirdi ki, Arif Məmmədov Azərbaycanda yaşamadığından qeyri-real bəyanatlar verir:** "Ölkə daxilində olan müxalifətlə xaricdə məskunlaşan siyasətçilər arasında çox ciddi fikir ayrılığı var. Biz bəzən önə çıxırıq, bəzən geri çəkilirik, bəzən güzəştə gedirik. Ölkədə gedən real proseslərdən, situasiyadan xəbərsiz olan xaricə sığınmış siyasətçilər isə bunu başa düşmür. Bu, buradakı hadisələri dərk etməməklə, hadisələrin iştirakçısı olmamaqla bağlıdır.

Məsələnin ikinci tərəfinə gəldikdə isə xaricdə oturub Azərbaycanda inqilab etmək, hakimiyyəti dəyişdirmək çağırışları edən insanların özlərinin siyasi lider olması şübhə altındadır. Məsələn, Arif Məmmədov illərlə bu hakimiyyətə xidmət edib. İndi 5-6 aydır ortaya çıxıb gündə bir bəyanat verir, onu hər şeyi



Sərdar Cəlaloğlu

dəyişə biləcək siyasi lider hesab etmək olmaz. Bizim verdiyimiz bəyanatlar onun bəyanatlarından kəskindir. Sadəcə, o yeni ad olduğu üçün bir keçici müddət ərzində cəmiyyətdə sensasiya yaradır. Bu sensasiyanın təsiri altında isə Arif Məmmədov kimi adamlar elə bilirlər ki, artıq böyük siyasi liderdirlər və onların xaricdən bir çağırışı, bir işarəsi ilə xalq ayağa qalxıb hakimiyyəti dəyişəcək. Diqqət edirsinizsə, artıq Arif Məmmədovun ən sərt bəyanatları belə, əvvəlki əks-sədanı, ictimai marağı doğurmur. Əslində onun özü də bilir ki, Azərbaycana gəlib hakimiyyəti dəyişəcəyi barədə dedikləri qeyri-realdır".

**ADP sədrinin sözlərinə görə, Arif Məmmədovun da çağırışları heç nəyi dəyişməyəcək:** "Özün gedib xaricdə rahat həyat yaşayırsan, oradan xalqı meydanlara çağırırsan, yaxud da elə hey "gələcəm-gələcəm" deyirsən, lakin gəlmək istiqamətində real addım atmırsan. Öncə hələ bir özün gəl bura və bircə gün burada müxalifətçilik elə. Bunu etmirsənsə, xalq, daxildəki siyasi qüvvələr sənə inanmaz. Onsuz da belə qəfil peyda olanların səmimiliyinə həmişə xalqda inamsızlıq olur.

2013-cü ildə Rüstəm İbrahimbəyov da illərlə sağlığına badə qaldırdığı hakimiyyətin əleyhinə danışdı. Onun da ilk vaxtlar bu bəyanatları sensasiya yaradırdı. Sonra getdi xaricə və xaricdə oturub buradakı insanlara liderlik eləmək fikrinə düşdü, o da başladı xalqı bu hakimiyyətə qarşı ayağa qalxmağa çağırmağa. Nəticə nə oldu? Heç nə.

Mən bu adamları heç siyasətçi hesab eləmirəm, xalq da onların hətta hakimiyyətlə münasibətləri pozulduqdan sonra şəxsi rahatlıqlarından vaz keçmək, bura gəlib meydanda mübarizə aparmaq cürətlərinin, istəklərinin olmadığını yaxşı görür".

❑ **Etibar SEYİDAĞA**

# "Eldar Sabiroğlu "mahmudovçu" qrupun üzvüdür"

## Sabiq YAP-çı deputat Prezident Administrasiyası rəhbərinə qarşı yenə məqalə yazıb; Qabil Hüseynli polkovnik barədə sensasion ittihamlar səsləndirdi

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin keçmiş rəisi, ehtiyatda olan polkovnik, sabiq YAP-çı deputat Eldar Sabiroğlu növbəti dəfə Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin əleyhinə yazı ilə çıxış edib. Aylar öncə sərt yazıları ilə gündəmi zəbt edən polkovnikin son yazısı daha kəskindir...**

Məqalə əvvəlki yazılar kimi başdan-ayağa Prezident Administrasiyası və qurumun rəhbərinin tənqidi üzərində qurulub. E.Sabiroğlu indiyə qədər səsləndirmədiyi fikirləri bu məqalədə açıqlayıb. MTN olaylarına toxunan sabiq YAP-çı deputat təhlükəsizlik orqanında indiyə qədər baş verən cinayətlərdən Prezident Administrasiyasının xəbərsiz olmasının mümkünsüzlüyünü vurğulayıb. Polkovnikin yazıdakı daha bir iddiası daha dəhşətlidir. O, 2013-cü ilin əvvəllərində Bakıda keçirilən "Əsgər ölümlərinə son!" aksiyasını Müdafiə Nazirliyinin əleyhinə təşkil olunan etiraz kimi qələmə verərək, burada da Prezident Administrasiyasının rəhbərini günahlandırıb, onun aksiyadan xəbərinin olduğunu bildirib. Polkovnik bunu sabiq müdafiə naziri Səfər Əbiyevə qarşı plan kimi qələmə verib...

**Heydər Əliyev hakimiyyətinin ilk illərində dövlət müşaviri işləmiş politoloq Qabil Hüseynli hesab edir ki, Eldar Sabiroğlu kimlərinsə xoşuna gəlmək üçün dəridən-qabıqdan çıxır:** "Eldar Sabiroğlunu kimlərsə danışdırır, o da kimlərinsə xoşuna gəlmək istəyir. Hədəf kimi bəlli şəxsi seçməsi də təsadüfi deyil. O, olmayan hakimiyyətdaxili ziddiyyətlərdən zahirən öz xeyrinə bəhrələnmək istəyir. O, Prezident Administrasiyasında işləməyib. Onun dedikləri uydurmadır. Konstitusiyada yazılıb ki, güc nazirliklərinin hamısı birbaşa prezidentə tabedir. Prezident Administrasiyanın baş verənlərdən xəbərinin olub-olmamasının elə də əhəmiyyəti yoxdur. 11 ildən artıq iş başında olan insanın fəaliyyətindən başqaları nə qədər xəbərdardırsa, Prezident Administrasiyası da bu qədər xəbərdar ola bilərdi. Qərarların qəbul edilməsində, icra olunmasında bu qurumun rəhbəri prezidentdən aldığı tapşırıqlar əsasında işləyir. Prezidentin tapşırığı olmadan, o, hər hansi bir təşəbbüslə çıxış edə bilməz. Onun dedikləri təxəyyülünə gücənərək dediyi fikirlərdir".

**Politoloq R.Mehdiyevin Eldar Mahmudovun əməllərindən xəbərinin olmasının mümkünsüz olduğunu da qeyd etdi:** "Prezident Administrasiyasının rəhbəri Mah-



Qabil Hüseynli

mudovun əməllərini bilə bilməzdi. Prezidentin özü də son zamanlar bu hadisənin mahiyyətini yalnız şahid ifadələrindən sonra öyrənə bilib. Bu hadisələr barədə ilkin məlumatlar ölkə başçısına daxil olub. Ondan sonra bu hadisənin ictimailəşməsi prosesi gedib. Bu baxımdan inanmıram ki, hadisələrin üstü açılana qədər Prezident Administrasiyası səviyyəsində hər hansı bir qurumun bundan xəbəri ola bilərdi. Eldar Sabiroğlu göy guruldamasının da səbəbini Ramiz Mehdiyevdə axtarır. Hər kəs bilməlidir ki, Ramiz Mehdiyevə qarşı mübarizə aparan qrupun başında Eldar Mahmudov dayanırdı. Eldar Sabiroğlu da "mahmudovçu" qrupun üzvlərindən idi. Həmin adamın intellektual səviyyəsinə, iş qabiliyyətinə bələdəm. Özündən bu dərəcədə müştəbeh olub, özü ilə adını çəkdiyi bir şəxsi tərəzinin bir gözünə qoyması, sadəcə olaraq, özünün reytinqini qaldırmaq məqsədidir. Görüntü yaratmaq istəyir ki, görün mən kimlərlə vuruşuram, mübarizə aparıram. Belə saxta rəylər yaratmağa çalışır. Əgər o, haqq-ədalət uğrunda mübarizə aparmış bir şəxs olsaydı, nəyisə düzəltmək xətrinə meydana atılmış olsaydı, başqa cür hərəkət etməli idi. O, hədəf kimi Azərbaycan dövlətçiliyinin keşiyində kişi kimi cəsarətlə dayanan bir şəxsi götürürsə, faktiki olaraq, Azərbaycan dövlətçiliyinə qarşı çıxır. Bunu belə düşünürəm. Bu şəxsin bəd niyyətlərini qətiyyətlə pisləyirəm. Güman edirəm ki, cəmiyyətin böyük hissəsi də düşündüyüm kimi düşünür".

**Q.Hüseynli polkovnikin hər yazısında Heydər Əliyev və ölkə başçısının adından istifadə etməyinə də aydınlıq gətirdi:** "Bu, yaltaqlığın, mədahlığın bir formasıdır. Əlbəttə, Heydər Əliyev və İlham Əliyev tərifəlayiq şəxslərdir. Mən Heydər Əliyevin dövründə dəfələrlə şahidi olmuşam ki, o, Ramiz Mehdiyevin haqqında yüksək fikirlər söyləyib. Onun iş təcrübəsindən öyrənməyi tövsiyə edib. Heydər Əliyev və Ramiz Mehdiyev münasibətləri o zaman digərləri üçün bir örnək idi. Bunları bir-birindən ayırmaq Azərbaycan dövlətçiliyinin uğurlu bir komandasını üz-üzə qoymaq cəhdlərindən başqa bir şey deyil".

**Sabiq dövlət müşaviri E.Sabiroğlunun iki il öncəki əsgər ölümləri ilə bağlı keçirilən aksiyada R.Mehdiyevi ittiham etməsinə də toxundu:** "Bu şəxs doğrudan həqiqət carçısı kimi çıxış edirsə, özü həmin zaman vəzifədə idi, niyə o vaxt bu məsələni qaldırmadı? Ordumuzun Səfər Əbiyev dövründəki vəziyyətinə də baxın, indiki vəziyyətinə də. Ordumuzun bugünkü yüksək səviyyəli döyüş hazırlığı, hər cür silahlarla silahlanması, birinci Ali Baş Komandan İlham Əliyev cənablarının xidmətidir. Ondan sonra isə bu işi bilavasitə icra edən Zakir Həsənov cənablarının xidmətidir. Çəkinmədən deyirəm ki, ordumuz Səfər Əbiyev və Eldar Sabiroğlunun işlədiyi dövrdə ağır vəziyyətdə idi. Bu gün Azərbaycan ordusunun torpaqları azad etməyə, müstəqilliyimizi qorumağa qadir potensialı var. Əsgər ölümlərinin təşkilində Ramiz Mehdiyevin iştirakı haqqında fikirlər o qədər gülünc və əsassızdır ki, hətta onlara cavab verməyi lüzumsuz hesab edirəm. Eldar Sabiroğlu qərbi azərbaycanlıların adından çıxış edib, onları yerdə qalan əhali ilə qarşı-qarşıya qoymaq cəhdləri çox uğursuz bir çirkin niyyətdir, Azərbaycan dövlətçiliyinin əleyhinə yönəlmiş bir cəhddir".

❑ **Cavanşir ABBASLI**



## Prezidentlərin görüşü nə vəd edir?

Azər RƏŞİDOĞLU

**Son zamanlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müzakirələr yenidən aktuallaşıb. Azərbaycan və Ermənistan prezidentləri uzun müddətli fasilən sonra yenidən görüşməyə razılıq veriblər.**

Maraqlıdır ki, son günlər ermənilərin 5 rayonu boşaldılmasına razılıq verdiyi barədə məlumatlar da dolaşmaqdadır. Lakin sual açıq qalır - bu, hansı şərtlər altında reallaşacaq? Qeyd edək ki, Ermənistan və Azərbaycan prezidentlərinin keçiriləcək növbəti görüşü zamanı "Madrid prinsipləri"nin yenidən müzakirə ediləcəyi gözlənilir. Xatırladaq ki, "Madrid prinsipləri" adlı təkliflər zərfində Azərbaycanın maraqlarına cavab verən məqamlar az deyil. Lakin adıçəkilən təkliflərdə qeyri-müəyyən məqamlar da mövcuddur və bu da tərəflərə manipulyasiya üçün imkan verə bilər, yəni o prinsiplər indi təqdim olunan kimi qəbul edilərsə, tərəflərin həmin prinsipləri öz xeyrinə təqdim etmək imkanı yaradır.

Təkliflər paketində Azərbaycanın maraqlarına uyğun olan məqamlardan biri birmənalı olaraq Dağlıq Qarabağın ətrafındakı işğal edilmiş ərazilərin boşaldılmasıdı. Digər məqam bütün qaçqın və məcburi köçkünlərin daimi yaşayış yerlərinə birmənalı şəkildə qayıdışının təmin edilməsidir. Bu, Azərbaycanın da, Ermənistanın da marağında olan məsələdir. Burada qeyri-müəyyən məqamlardan biri Laçın dəhlizi ilə bağlıdır. Sual açıq qalır - Laçın dəhlizinin statusu necə olacaq? Həmin dəhlizin sərhədləri nə qədər olacaq, hansı əraziləri əhatə edəcək? Bu, məlum deyil. Tam aydın olmayan prinsiplərdən biri də Dağlıq Qarabağa aralıq statusun verilməsidir. Əgər Dağlıq Qarabağ sülh sazişinin imzalanmasında iştirak edəcəksə, burada mütləq Dağlıq Qarabağın faktiki hakimiyyəti ilə müəyyən əlaqələrin qurulması lazım gələcək. Yəni DQ-nin iştirakı olmadan bu, mümkün deyil. Onu da unutmaq lazım deyil ki, Dağlıq Qarabağ əhalisinin münaqişəyə qədər təxminən 25 faizi azərbaycanlılardan ibarət olub. Əgər onlar özünüidarəetmə strukturlarının formalaşdırılmasında iştirak etməyəcəklərsə, bu, məqbul variant hesab edilə bilməz.

Rəsmi Bakının bəyan etdiyi formula əsasən əvvəl 5, sonra 2 rayon işğaldan azad olunur. Sonrakı mərhələdə DQ-nin statusu müzakirə oluna bilər. Burada da çox ciddi sual yaranır - Dağlıq Qarabağa qayıdan azərbaycanlıların statusu nədən ibarət olacaq? Onlar yerli hakimiyyəti tanımalıdırlar, yoxsa yox? Onların Azərbaycan hakimiyyəti, yəni, rəsmi Bakı ilə münasibətləri necə qurulacaq? Ümumiyyətlə, onların qayıdış prosesi necə təşkil olunacaq? Bütün bunlar bu gün hələ ki, açıq qalan məsələlərdi.

Daha bir məqam isə ondan ibarətdir ki, Dağlıq Qarabağın statusu ilə bağlı bənd, ümumiyyətlə, çox qeyri-müəyyəndi. Bu bənd tərəflər arasında problemin həlli ərəfəsində partlaya bilən mina rolunu oynaya bilər. Status hansı formada olacaq, bunu indidən dəqiq demək mümkün olmasa da, bununla bağlı ifadədə əhalinin hüquqi ifadəsi ilə bağlı fikrin əksini tapması referendum olmasa da referenduma bərabər akt kimi qəbul edilə bilər.

Rəsmi Bakı bəyan edir ki, Dağlıq Qarabağa ən yüksək status verməyə hazırdır. Lakin bu statusu vermək üçün bütün Azərbaycan ərazisində referendum keçirilməlidir. Çünki konstitusiyada Dağlıq Qarabağ adlı muxtar qurum yoxdu. Həmin muxtar qurumu yaratmaq ona Naxçıvan kimi statusu müəyyənləşdirmək üçün əhalinin hüquqi qüvvəyə malik iradəsinin ifadəsi olmalıdı.

Daha bir məqam isə ondan ibarətdir ki, Dağlıq Qarabağın Ermənistanın nəzarət etdiyi torpaqları iki yerə bölünsün - Dağlıq Qarabağ və Laçın dəhlizinə. Yəni tərəflərə paket variant təklif edilir. Problemin təhlili onu deməyə əsas verir ki, açıqlanan prinsiplərin olduğu kimi qəbul edilməsi imkansızdır. İstisna deyil ki, tərəflərin "hərbi marş" oynamasının əsas səbəbi də budur...

---

# "Onlar cəzasını almasa, köşklərdə bizdən qabaqda olacaqlar"

## Mətbuat Şurasında redaktorlar reket qəzet və saytları tənqid etdilər...

**Noyabrın 19-da Beynəlxalq Mətbuat Mərkəzində Mətbuat Şurasının təşkilatçılığı ilə "Media və məsuliyyət: mövcud durum və perspektiv vəzifələrə baxış" mövzusunda dəyirmi masa keçirildi. Son dövrlər ölkədə baş verən siyasi proseslərin fonunda bəzi media orqanlarının qeyri-peşəkar fəaliyyətinin müzakirə mövzusu olduğu tədbirdə MŞ İdarə Heyətinin üzvləri ilə yanaşı, redaktorlar da müzakirədə aktiv iştirak etdilər.**




MŞ sədri Əflatun Amaşov tədbiri giriş sözü ilə açaraq bildirdi ki, rəhbəri olduğu qurum hər zaman mediada gedən proseslərə həssaslıqla yanaşır. Onun sözlərinə görə, son dövrlər ölkədə baş verən proseslərə nəzər salanda mətbuatın üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdiyi məlum olur. Amma o, bu həssaslığın hər zaman özünü doğrultmadığını vurğuladı: "Yazılı mətbuatla yanaşı, çoxsaylı saytlar yaranıb, sosial şəbəkə də aktivdir. Belə bir vəziyyətdə rəqabətin olması, kim informasiyanı daha tez verəcək, diqqəti cəlb edəcək yarışının olması diqqətdən yayınmır. Bəzi məqamlarda ilk mənbəyə məhəl qoymadan, araşdırma aparmadan İP, imic xatirinə bizim bəzi KİV orqanları xəbərləri yayırlar, nəticədə ajiotaj yaranır".

**Ə.Amaşovun sözlərinə görə, prosesin ən maraqlı tərəfi isə budur ki, bəzən bir neçə gün boyunca saytlar, çap mediası hansısa informasiyanı yayır, amma bundan sonra hüquq-mühafizə orqanlarının mətbuat xidməti bu xəbərləri təkzib edirlər:** "Mətbuat xidmətləri ölkə KİV-lərini vaxtında, mütəmadi olaraq informasiyalarla təmin etmirlər. Bu üç nüans media ekspertləri tərəfindən diqqəti cəlb edir. Biz bu hallarla mübarizə aparır, tədbirlər keçiririk".

**MŞ sədri bildirdi ki, dünyanın istənilən ölkəsində MTN kimi ölkənin təhlükəsizlik strukturu adlanan qurumda hadisələr baş versəydi, o ölkənin mediası bunu yayacaqdı. Onun sözlərinə görə, ölkənin ciddi, nüfuzlu media orqanları bu xəbər savaşında öz üzərlərinə düşən funksiyanı layiqincə yerinə yetirə bilsələr də, bu məqamda jurnalistikadan uzaq əməllər edənlər də tapıldı:** "Son zamanlar bəzi xəbər portallarında "hansısa məmur hələ də vəzifəsindədir" tipli xəbərlər yayılır. Mətbuat Şurasına da bu cür yazılarla bağlı şikayətlər gəlir. Bir sıra xəbər portalları o nazirliyin nümayəndələri ilə əlaqə saxlayır, redaksiyalara dəvət edirlər. Burada məqsəd şəxsi mənafedir, cəmiyyəti məlumatlandırmaq yox. Bir sıra saytlar var ki, populyar deyillər. Onlar bu kimi məqamlarda aktivləşirlər. Bir sıra aparıcı KİV-lər bu saytlarda işıq üzü görən xəbərləri öz saytlarında yayırlar. Bu cür saytlarda o xəbərin yayılması təhlükəli deyil, amma oxunan saytların onlara istinad etməsi təhlükəlidir".

**Ə.Amaşov bir neçə gün bundan əvvəl Prezident Administrasiyası İctimai-siyasi şöbəsinin müdiri Əli Həsənovun da bu cür halları tənqid edərək, onların qarşısının hüquqi yollarla alına biləcəyi barədə açıqlamasını xatırlatdı:** "Arzu olunandır ki, bu məsələnin hüquqi müstəviyə qədər media müstəvisində həllinə nail olaq və bu mümkündür".

**"APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı son olayların fonunda bəzi saytlarda dozanın aşılması hallarının müşahidə olunduğunu dedi. Onun fikrincə, ictimai nəzarət bütün qurumlara münasibətdə olmalıdır. Amma son günlər baş verən proseslər MTN-ə qarşı ictimai nəzarətin olmamasının nəticəsidir:** "Azərbaycanda Prezident Administrasiyasından tutmuş, digər bütün qurumlara qədər hamısı tənqidə açıq idi, onlara qarşı ictimai nəzarət var idi, MTN-dən başqa. Prezidentin də bizimlə son görüşündə bildirilmişdi ki, ictimai nəzarət olmalıdır. Xəbər varsa, yayılmalıdır. İndi isə vəziyyət başqadır. Bizə xəbər yazmayın demirlər, yalan yazmayın deyirlər. Lütfən bunlar haqda danışanda ifadələri qarışdırmayaq. Xəbər yalan olmur. Yalandırsa, artıq xəbər deyil".

**V.Mahirqızı dedi ki, bu məsələlərdə hüquq-mühafizə orqanlarının mətbuat xidmətləri daha intensiv işləməlidilər:** "Əgər ölkədə tanınan şəxs barədə həbs-qətimkan tədbiri varsa, bunu rəsmi qurumlar təsdiqləməli və biz də bunun xəbərini yaymalıyıq. O halda ki, ibtidai istintaqın gedişinə təsir etmir, onlar yayılmalıdır. Əleyhinəyəm ki, bizim media orqanlarımızda MTN əməkdaşlarının istintaqa cəlb olunması ilə bağlı ad-soyadlar verilir. O adamlar həbs olunmayıb. Onların adları və mövqeyi açıqlanmamalıdır. O adamlar öz vəzifələrinə qayıdacaqlar".

**Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli bildirib ki, qurum əksər KİV-lə bağlı monitorinq aparır. O, monitorinqin nəticəsi olaraq bəzi KİV-də qarşı tərəfin mövqeyinin verilmədiyini, qərəzli məlumatların yayıldığını bildirdi:** "Bu cür əməllər yığışdırılmalıdır. Əgər qanunun sərt üzü göstərilsə, o zaman bu gün nə qədər media nümayəndəsi məsuliyyətə cəlb oluna bilər. Son vaxtlar dəb düşüb ki, bəzi "reket" saytlar bir neçə adla fəaliyyət göstərir. Hər hansı məlumatı pul qarşılığında saytdan çıxardıqdan sonra dərhal digər saytlara da qoyulur və oradan da çıxarılması üçün pul tələb olunur".

**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid isə yalan informasiya yayan media orqanlarının adının çəkilməli olduğunu bildirdi. Onun dediyinə görə, MŞ-də reketlərə qarşı mübarizə üzrə komissiya var:** "Görünür ki, o qəzetlər insanları şantaj edir, məmurlar haqda əlçatan olmayan xəbərləri yayır. Mətbuat Şurası üzvlərinin də şəklini vurub, təhqir edirlər. İndi isə məlum olub ki, MTN-də kimlərsə reketlik ediblər, onlara da mətbuat yardım edib. Bu "qəzetlər" cəzalandırılmalıdır. Onlar cəzasını almasa, köşklərdə bizdən qabaqda olacaqlar".

**"Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu** da Mətbuat Şurasının bu adları çəkməli olduğunu dedi.

Ə.Amaşov isə zarafatla "siz o adları çəksəniz, sabah şəkilləriniz o qəzetlərdə olacaq" dedi.

**"Səs" qəzetinin baş redaktoru Bəhruz Əliyev** də reketçilik edən, eləcə də xarici qurumların maliyyəsi ilə jurnalistikadan uzaq fəaliyyət göstərən media qurumlarının olduğunu və MŞ tərəfindən bunların adının çəkilməsinin vacibliyini vurğuladı.



**KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun rəhbəri Vüqar Səfərli isə bu gün hamının problemdən danışdığı halda, ad çəkmədiyini bildirdi. Məşhur lətifədəki "o zınqırovu pişiyin boynuna kim keçirəcək?" sitatını yada salan çıxışçı Mətbuat Şurasında bu mövzu ilə bağı monitorinq komitəsi yaradılması və sonuncunun prinsipləri pozan media qurumlarını müəyyən etməsinin vacibliyini bildirdi:** "Bu media orqanları tutulmayan idarə rəhbərlərinə zəng edib, görüş təklif edirlər. Deyirlər ki, sizdən bizə ciddi materiallar daxil olub. Görüşüb həll etmək lazımdır. Onlar da deyirlər ki, istintaq gedir, araşdırma gedir. Səhəri gün onların şəklini MTN əməkdaşları ilə birgə verirlər ki, bu adam hələ çöldədir, niyə tutulmayıb? O birilər də bu saytdan informasiyaları götürüb yayır. Biz hamımız bir olub, sözümüzü deməliyik".

**"Bu media orqanları tutulmayan idarə rəhbərlərinə zəng edib, görüş təklif edirlər, deyirlər ki, sizdən bizə ciddi materiallar daxil olub, görüşüb həll etmək lazımdır. Sonra isə..."**

Strateq.az saytının redaktoru Elxan Şükürlü isə reket mətbuatın qarşısının alınmamasında Mətbuat Şurasını suçladı.

**MŞ sədri E.Şükürlünün iradlarına cavab olaraq bildirdi ki, rəhbərlik etdiyi qurum tez-tez "qara siyahı"nı açıqlayır, reket media orqanlarının adlarını yayır:** "80-ə yaxın KİV bu siyahıda olub. Kim ki, jurnalist peşəsindən sui-istifadə edir, onlar da bu siyahıda öz əksini tapacaq. Son olaylar zamanı da monitorinq komissiyamız fəaliyyət göstərir. Nəticələr yekunlaşan kimi açıqlayacağıq".

**"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov "reket qəzetlər"lə mübarizə sahəsində Mətbuat Şurasının ünvanına səslənən tənqidlərə münasibət bildirdi. Dedi ki, Mətbuat Şurası bu sahədə ciddi addımlar atıb:** "Reket jurnalistika ilə mübarizə sahəsində komissiya yaradıldı, güclü müzakirə getdi. Qəzet sahəsində olan reketlərin hamısı elektron mediaya transfer edib. Arada tədbirlər oldu. Güzəşt elədik, "qara siyahı"dan insanlar çıxarıldı. Amma bu günkü çıxışlar göstərir ki, biz bu mübarizəni davam etdirməliyik".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 259 (6287) 21 noyabr 2015

# “Başqaları da ibrət dərsi götürməlidir”

## Siyavuş Novruzov: “Kim bu yolla gedəcəksə, aqibəti elə onlar kimi olacaq”

**Azərbaycanda baş verən son hadisələr, MTN-in, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yüksək çinli məmurlarının həbsi, həmçinin G-20-lərin sammitində Azərbaycanın da iştirakı gündəmin əsas mövzularındadır. Mövzu ilə əlaqədar hakim Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini Siyavuş Novruzovla danışdıq.**

***- Siyavuş bəy, Türkiyədə keçirilən G-20-lərin toplantısında Azərbaycanın iştirakının hansı önəmi var və perspektivdə nələr gözlənilir?***

- Bu, çox vacib bir iştirak idi. Cənab prezidentin həm orda iştirakı, həm çıxış etməsi, Azərbaycanın haqq işinin qeyd olunması, terrorizmə qarşı mübarizə, Azərbaycanın erməni terrorundan əziyyət çəkməsi barədə bilavasitə dünyanı idarə edən o ölkələrin, rəhbərlərin içərisində mesajların verilməsi Azərbaycanın növbəti uğurlarından biridir. Həmçinin Azərbaycanın gələcəyə baxışı, gələcək inkişafı baxımından G-20-də iştirakımız vacib şərtlərdən biri idi. Bu isə Ermənistanı məyus etməliydi. Çünki Ermənistanı istəyən dövlətlərin də bəziləri orda var idi. Bəziləri həm Azərbaycan-Türkiyə münasibətləri, həm Azərbaycanın dünyanın aparıcı dövlətləri ilə münasibətlərini görüb Ermənistanın bundan sonra daha pis vəziyyətə düşməsinin şahidi oldular. Hesab edirəm ki, bu, belə də olacaq. Azərbaycan təbliğatının bu cür mötəbər bir məclisdə, bütün dünyaya yayılması vacib şərtlərdən idi. Bu da cənab prezident tərəfindən orda qeyd olundu. Yeri gəlmişkən, sizin qəzetin də G-20 sammitindən hazırladığı materialları izlədik, rəyimiz çox yüksəkdir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın sizə müsahibəsini də izlədim, şəkillərə də baxdım. G-20 sammitinə və Azərbaycanın orda iştirakına Mehriban xanım çox yüksək qiymət verdi. Mehriban xanımın sammit çərçivəsində keçirdiyi görüşlər və s. Azərbaycan xalqının maraqlarının müdafiə olunmasına bilavasitə xidmətdir. Sammitdən sonra cənab prezidentin terrordan sonra Fransaya səfər edərək YUNESKO-nun tədbirində iştirak etməsi də mühüm hadisəydi. Fransa-Ermənistan münasibətlərini çox gözəl bilirsiniz. Burada da cənab prezidenti bilavasitə Azərbaycan xalqının erməni terroruna məruz qalması, 3 minə yaxın insanın bu terror nəticəsində dünyasını dəyişməsini bəyan etdi. Qeyd etdi ki, Azərbaycan xalqı bu faciələri yaşayıb, ona görə də tək bir terror təşkilatına qarşı deyil, bütün dünya terror təşkilatlarına qarşı mübarizə aparmalıdır.

***- Siyavuş bəy, Azərbaycanın daxilində gedən proseslər, MTN ətrafında aparılan həbslər və istintaq işləri ciddi müzakirə obyektidir. Həbs olunan “Aztelekom”un rəhbəri Vidadi Zeynalovun YAP Nəzarət-Təftiş Komitəsinin sədri olması hakim partiyanın məsələyə münasibət bildirməsini zəruri edir...***

- Nəzarət-Təftiş Komitəsinin üzvü qurultayda seçilir və ondan sonra komissiya özünə sədr seçir. Yəni bu, onun partiya fəaliyyəti ilə bağlı olan məsələ deyil, çalışdığı sahə ilə bağlı məsələdir. Hazırda istintaq gedir. İstintaqın nəticələri bitdikdən sonra hər hansı bir qərarın verilməsi artıq istintaqın səlahiyyətinə daxildir. Hələ heç bir şey başa çatmayıb, istintaq qurtarmayıb, məhkəmə hökmü, qərarı yox, bəzən görürsən bir çox mətbuat orqanları ayrı-ayrı fikirlər yayır. Bununla bağlı da Əli Həsənov *(PA rəsmisi, prezidentin köməkçisi-E.P.)* xüsusi xəbərdarlıq elan etdi. Məsələn, yazılır ki, bir nəfər deyir Azərbaycana aeroportdan 18 milyard pul gəlib. O adam elə danışır ki, elə bil 18 min manatdır. 18 milyard bilirsən nə deməkdir? Onun üçün 7 “KamAZ” lazımdır. Təbii ki, mütəxəssislər bunu bilir, araşdırır. Amma bəzi adamlar özlərini qabartmaqdan ötrü elə şayiələr yayır ki... Tutalım kimsə deyir MTN-in keçmiş işçisidir, danışır. Bununla işə bərpa olunmaq istəyir. Normal, ağıllı adam, iqtisadçı başa düşür ki, 18 milyard dolları daşımaq üçün 3-4 təyyarə lazımdır. Bu, Azərbaycanın dövlət büdcəsi deməkdir.

***- Bəlkə bu cür məlumatların yayılması ondan irəli gəlir ki, müvafiq qurumlar operativ şəkildə ictimaiyyəti məlumatlandırmır. Bu cür yanaşmalarla razılaşırsınızmı?***

- Hər hansı istintaq və ya araşdırmalar aparılırsa, orda yeni faktlar ortaya çıxır. Faktlar ortaya çıxdıqdan sonra hamısı ümumiləşdirilir, aidiyyəti qurumlar birgə bəyanat verir. Bəzi şəxslər çalışır ki, bu hadisələri daha çox ictimailəşdirsinlər. Amma başa düşmürlər ki, başqa dövlətlər də izləyir, baxır, bunlar Azərbaycanın daxili məsələləridir. Hələ ümummilli liderin dövründən, 1969-cu ildən korrupsiyaya qarşı mübarizə aparılıb, ondan sonra da bu mübarizə cənab prezident tərəfindən aparılıb. Prezident bütün toplantılarda hər bir məmuru xəbərdar edib ki, hər bir şey xalq üçündür, sizlər də xalqa xidmət üçün vəzifəyə təyin olunmusunuz.

***- Amma bəzi vəzifəlilər nəinki xalqa xidmət etməyib, hətta dövlətin milli təhlükəsizliyini təhdid edib. Bu, sadə məsələ deyil...***

- Təbii ki. Qanunun aliliyi ilə hər kəs öz cəzasını alacaq.

***- İddialar var ki, hakimiyyət bu vəziyyətdən narahat olduğu üçün məlumatların daha çox tirajlanmasını istəmir. Bu narahatlıq nə dərəcədədir?***

- Hakimiyyət öz iradəsini ortaya qoydu. Kimliyindən asılı olmayaraq, fərqi yoxdur. Görürsən bir nəfər bu və ya digər şəkildə cinayət törədib, həbs olunur, deyirlər ki, o, filan partiyanın üzvüdür, partiya baxışlarına görə həbs olunub. Amma YAP cəzalandırılan şəxslərin partiya üzvü olmasına görə ikiqat məsuliyyət daşıyır. Əgər onlar səhlənkarlıq edibsə, vəzifə səlahiyyətlərini aşıbsa, vəzifəsinin öhdəsindən gəlməyibsə, onların cəzası da ikiqat olmalıdır. Bizim digər partiyalardan fərqimiz bundan ibarətdir.

***- Cəzalandırılan digər şəxs, keçmiş rabitə naziri və yüksək texnologiyalar naziri Əli Abbasov da YAP Siyasi Şurasının üzvüdür. YAP nədən seyrçi mövqedən çıxış edir, sualına cavabınız necədir?***

- YAP qəti şəkildə seyrçi mövqedən çıxış etmir. Sadəcə, konkret mövqe ortaya qoyulub ki, təyin etmək, azad etmək hüququ cənab prezidentə məxsusdur. Cənab prezident təyin edir və onun işinə qiymət verir. Bunlar da cənab prezident qarşısında hesabat verirlər. Kim vəzifəsinin öhdəsindən gəlmirsə, vəzifə səlahiyyətlərini aşırsa, cinayət törədirsə, həmin şəxs tutduğu vəzifədən azad olunacaq. Müşavirədə də cənab prezident qeyd etdi ki, kim bu yolla gedəcəksə, nəinki tutduğu vəzifədən azad olunacaq, həmçinin məsuliyyətə cəlb olunacaq. Artıq bunun şahidi oluruq. Başqaları da ibrət dərsi götürməlidir. Vəzifə xalqa, dövlətə, millətə xidmət üçün verilir. Sənə vəzifə ona görə verilmir ki, özünə şəxsi sərvət toplayasan, mülk tikdirəsən. O baxımdan kim bu yolla gedəcəksə, aqibəti elə onların aqibəti kimi olacaq.



### “YAP qəti şəkildə seyrçi mövqedən çıxış etmir”

***- YAP üzvü olan yüksək çinlilərin məsələsi partiyanın İdarə Heyətində qoyulacaqmı?***

- Təbii ki. Bu proses gedir. Partiyanın İdarə Heyəti toplananda bu məsələlərə baxılacaq.

***- Bir dairənin nəticəsi ləğv olundu, Çingiz Əsədullayevin mandatı geri alındı. Daha 9 dairənin nəticələrinin ləğv ediləcəyi xəbəri doğrudurmu?***

- Mən MSK-nın iclasında iştirak etmişəm. Digər dairələrlə bağlı şikayətlərə baxıldı və bir neçə məntəqə ləğv olunmaqla sənədlər Konstitusiya Məhkəməsinə göndərildi. Ümumilikdə MSK-ya təxminən 44 şikayət ərizəsi daxil olmuşdu. Ləğv olunan məntəqələrin də 40-ı 90 saylı DSK-nın, 18-i isə ayrı-ayrı dairələrin payına düşür. Bu da ümumi seçkilərin nəticəsinə heç bir təsir göstərmir. Konstitusiya Məhkəməsi təsdiqlədikdən sonra parlamentin ilk iclası keçiriləcək.

***- Həbslərin davamının olacağı barədə xəbərlərlə bağlı nə deyə bilərsiniz?***

- Onu artıq biz deyə bilmərik. Ola bilər ki, kiminsə izahatı nəticəsində digərlərinin də adı, onların əlaqələri ortaya çıxsın. Bu, hüquq-mühafizə orqanlarının işidir...

❑ **Elşad PAŞASOY**



Akif Çovdarov



Eldar Mahmudov

# Gələn həftə qalmaqallı həbslərin olacağı gözlənilir

## Generalların poqonlarının sökülməsi üçün təqdimat hazırlanır

**Gələn həftə Azərbaycanda qalmaqallı həbslərin olacağı gözlənilir. 1 ay əvvəl MTN-də başladılan “təmizləmə” əməliyyatı məntiqi sonluğuna yaxınlaşmaqdadır. Hər ötən gün Eldar Mahmudovun 11 il müddətində rəhbərlik etdiyi qurumda baş verənlər haqda yeni məlumatlar üzə çıxır. Məlumatlarda yer alan məqamlar çox keçmir ki, cinayət işlərindəki cildlərə əlavə olunur və həbslər reallaşır. MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi, general-mayor Akif Çovdarovu tutduğu postdan uzaqlaşdırsalar da, noyabrın 14-nə qədər onu həbs etməmişdilər.**

Bu müddət ərzində A.Çovdarovun çeşidli cinayət əməlləri haqda məlumatlar mətbuat səhifələrinə çıxdı. Onun adam oğurlayıb qanunsuz həbslərə qol qoyması haqda yazılanlar az keçmədi ki, təsdiqləndi. Akif Çovdarov digər cinayətlərlə yanaşı rəsmən adam oğurluğunda ittiham olundu. Onu həbs etdilər. İstintaqçılar A.Çovdarova əsaslı ittiham elan etmək üçün 27 gün çalışdılar və nəticədə Eldar Mahmudovun pillə-pillə böyütdüyü bir kadrı dəmir barmaqlıqlar arxasına göndərildi.

Bir aydan artıqdır ki, Eldar Mahmudov milli təhlükəsizlik naziri vəzifəsindən azad edilib. Onun istintaqdan kənar qalması çoxlu sualların meydana çıxmasına, müzakirələrə yol açır. “Onu niyə tutmurlar” sualı tez-tez eşidilir, sabiq nazirin istintaqdan kənarda qalmasında ən müxtəlif versiyalar səsləndirlir. Amma ötən 1 ay ərzində görünən budur ki, istintaqçılar dosye yığır, toplayır. Çox iri fiqurların toplu həbslərinin gerçəkləşəcəyi gün isə uzaqda deyil. Tutulanlar sırasında “MTN işi” dalğasında postunu itirən rabitə və yüksək texnologiyalar nazirinin olacağı da realdır. Eldar Mahmudova gəlincə, ona ittiham elan etmək üçün faktlar və dəlilər, şahid ifadələri toplanır. Artıq ağır topların işə düşməsi üçün bütün hazırlıq işləri görülüb. Eldar Mahmudovun taleyinin efirlərdə müzakirələrə çıxarılması da təsadüfi deyil. Efirə ciddi nəzarətin olduğu bir vaxtda “Mahmudov və onun komandası” haqda 2 saatlıq veriliş nümayiş olunur. Bu, oktyabrın 17-də başlanan prosesin hansı sonluqla başa çatacağına işarədir. Bu günə kimi Eldar Mahmudovun komandasına daxil olan, ölkə əhəmiyyətli bir qurumda yüksək postlar tutan 20-dən çox şəxs həbs olunub. Təxminən bu qədər “mahmudovçu” da dəmir barmaqlıqlar arxasına göndərilib. Qurumun Monitorinq Mərkəzinin rəisi, general-mayor Elçin Quliyev, Əməliyyat Texniki İdarənin rəisi Natəvan Mürvətova, Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyev, Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin şöbə rəisi polkovnik Füzuli Əliyev, general mayor Akif Çovdarov həbs olunanlar sırasındadırlar. Belə bir halda E.Mahmudovun yaxasını istintaqçıların əllərindən uzaq tuta biləcəyi mümkünsüzdür. O, bu illər ərzində rəhbərlik etdiyi qurumda baş verənlərdən xəbərsiz ola bilməzdi. Xəbərsiz olubsa, bunun özü də ittihamın əsasını təşkil edə biləcək faktdır.

Qafqazinfo.az-ın məlumatına görə də milli təhlükəsizlik naziri vəzifəsindən azad edilən general-polkovnik Eldar Mahmudov, general-mayor Akif Çovdarov və digər generalların rütbələrindən məhrum olunacaqları gözlənilir. Sayt ali rütbələrin alınma qaydası haqda da məlumat verir.

Birinci qayda məhkəmə qərarı ilə qanuni cəza qüvvəyə minəndən sonra ola bilər. Cinayət Məcəlləsinin 48-ci maddəsində qeyd olunur ki, məhkəmə qərarı ilə cəzalandırıldıqdan sonra şəxs rütbədən və dövlət təltiflərindən məhrum edilə bilər.

Maddə 48. Xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum etmə

Ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxsin məhkum olunması zamanı məhkəmə cinayətin xarakterini, təqsirkarın şəxsiyyətini və işin digər hallarını nəzərə alaraq onun xüsusi və ya hərbi rütbədən, fəxri addan və dövlət təltifindən məhrum edilməsinin zəruriliyi nəticəsinə gəldikdə, bu barədə xüsusi və ya hərbi rütbəni, fəxri adı və dövlət təltifini vermiş orqana müvafiq təqdimat göndərir.

İkinci isə prezidentin səlahiyyəti daxilindədir və dövlət başçısı istənilən zaman həmin şəxsləri ali rütbələrindən məhrum edə bilər.

Yada salaq ki, E.Mahmudova general-polkovnik rütbəsi 2014-cü il martın 27-də verilmişdi.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 259 (6287) 21 noyabr 2015

# Müxalifət Konstitusiya Məhkəməsindən nə gözləyir...

## Bir neçə dairədə seçkilərin nəticələrinin ləğv olunacağı ehtimal edilir

**Mərkəzi Seçki Komissiyası parlament seçkilərinin yekunlarına dair protokolu təsdiq edilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim edib. Seçki Məcəlləsinin tələbinə görə, Mərkəzi Seçki Komissiyası qanuna əsasən səsvermə günündən sonra 20 gün müddətində yekun qərarını verir və bundan sonra sənədlər Konstitusiya Məhkəməsinə göndərilir.**

Bundan sonra isə Konstitusiya Məhkəməsi qanunda nəzərdə tutulan 10 gün müddətində seçkinin nəticələri ilə bağlı öz qərarını verir. Konstitusiya Məhkəməsi seçkinin nəticələrini təsdiqlədikdən sonra Milli Məclisin yeni tərkibi ilk iclasını keçirməlidir. MSK-nın yekun protokoluna Konstitusiya Məhkəməsi ən geci noyabrın 28-dək baxmalı və qərar verməlidir. Konstitusiya Məhkəməsinin gələn həftə ərzində bu addımı atacağı gözlənilir.

Onu da qeyd edək ki, Konstitusiya Məhkəməsi hansısa dairədə seçkinin nəticələrini ləğv etməyəcəyi halda Milli Məclisin yeni tərkibi 125 yox, 124 nəfərdən ibarət olacaq. Məlum olduğu kimi, MSK 90 saylı Ağdaş seçki dairəsində seçkinin nəticələrini ləğv edib. Həmin dairədə yeni seçkilərin nə vaxt keçiriləcəyi isə hələ bəlli deyil.

Dünən isə bəzi xəbər saytlarında Konstitusiya Məhkəməsinin təxminən 8-9 dairədə seçkinin nəticələrini ləğv edəcəyinin gözlənildiyi barədə informasiya yayılıb.

Parlament seçkilərinin nəticələrinin təsdiqi "Konstitusiya Məhkəməsi haqqında" Qanunun yeddinci fəslinin 54-cü maddəsində əks edilib. Göstərilir ki, Konstitusiya Məhkəməsi Milli Məclis seçkilərinin nəticələrinin düzgünlüyünü yoxlayır və təsdiq edir. Seçkilərin nəticələrinin düzgünlüyünü yoxlamaq üçün Konstitusiya Məhkəməsi Plenumunun iclası Konstitusiya Məhkəməsinə materiallar daxil olduğu gündən ən geci 10 gün keçənədək başlanmalıdır. Yoxlama prosesi tələb etsə, Konstitusiya Məhkəməsi öz qərarı ilə bu müddəti artıra bilər.

Qanunda göstərilir ki, Konstitusiya Məhkəməsi apelyasiya instansiyası məhkəmələrindən və Ali Məhkəmədən seçki hüquqlarının müdafiəsinə dair işlər üzrə baxılmış ərizələr haqqında məlumat tələb edir. Bu, çox mühüm bir amildir və seçkilərin nəticələrinin ləğv edilməsi barədə iddialara tam aydınlıq gətirir. Bu o deməkdir ki, istənilən 125 dairədə nəticələr o halda ləğv edilə bilər ki, seçkinin nəticələrindən narazı qalmış




namizədin (və ya namizədlərin) üç məhkəmə instansiyasına müraciəti olsun. Yəni bu prosedur sənədlər olmadan Konstitusiya Məhkəməsi hansısa dairədəki nəticəni özbaşına ləğv edə bilməz. Məhz bu səbəbdən də Konstitusiya Məhkəməsi apelyasiya instansiyası məhkəmələrindən və Ali Məhkəmədən seçki hüquqlarının müdafiəsinə dair işlər üzrə baxılmış ərizələr haqqında məlumat tələb edir.

Bəs 1 noyabr seçkilərində iştirak etmiş və parlamentə düşə bilməyən tanınmış müxalifət partiyalarının Konstitusiya Məhkəməsindən gözləntiləri nədir? Əgər 3-4 dairədə nəticələr ləğv olsa onlar həmin dairələrdə təkrar seçkidə iştirak edəcəklər?

**KXCP sədri Mirmahmud Mirəlioğlu bildirdi ki, Konstitusiya Məhkəməsindən böyük gözləntisi yoxdur:** "Yuxarıdan siyasi iradə olaraq necə istəsələr Konstitusiya Məhkəməsi o cür qərar verəcək. Ona görə də necə olacağını nə siz, nə də biz dəqiq bilə bilmərik. Ehtimal etmək isə başqa məsələdir. Əgər 3-5 dairədə nəticələr ləğv ediləcəksə, məhz belə bir qərar verildiyi təqdirdə həmin dairələrdə təkrar seçkilərdə iştirak etmək və ya etməmək məsələsinə baxmaq olar. Biz 1 noyabr seçkilərində blok olaraq, partiya olaraq iştirak etmişik. Sonradan fikir ayrılıqları da meydana çıxıb. Bundan asılı olmayaraq hesab edirik ki, etdiyimiz işləri davamlı etməliyik. Təkrar seçkilər olan dairələrdə seçkiyə qatılmaq məsələsində üzvlərimizə sərbəstlik verə bilərik".

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, Konstitusiya Məhkəməsinin hansısa dairələrdə nəticələri ləğv edib-etməyəcəyi haqda hələlik konkret heç nə demək mümkün deyil:** "Konstitusiya Məhkəməsindən də gözləntimiz elə də böyük deyil. Konkret öz dairəm üzrə də gözləntim yoxdur. Çünki məhkəmələrdəki münasibəti gördüm. Təkrar seçkidə iştirak edib-etməmək məsələsinə gəlincə, buna partiya qərar verəcək. Ona görə də məsələ partiyada müzakirə olunacaq".

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn isə Konstitusiya Məhkəməsinin bir neçə dairədə seçkinin nəticələrini ləğv edəcəyini istisna etmədiyini dedi:** "Əgər belə olarsa təkrar seçkilərdə partiyamızın iştirakı məsələsinə gəlincə, mənim namizəd olduğum 63 saylı dairədə nəticələr ləğv olunsa, bu məsələyə baxarıq. Çünki açıq-aşkar pozuntular daha çox məhz bu dairədə baş verib".

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı isə bildirdi ki, seçki məsələsində hakimiyyətdən qanuna uyğun hansısa addım atılmasını gözləmir:** "Sadəcə olaraq, ölkədəki vəziyyətdən, son hadisələrdən asılı olaraq daha bir neçə dairənin nəticələrini Konstitusiya Məhkəməsi vasitəsilə ləğv edə bilərlər. Lakin bu, heç də həmin dairələrdə qanun pozuntuları olduğu üçün yox, ölkədə son vaxtlar baş verən, ortaya çıxan məsələlərə görə, hakimiyyətin özünün qorunması üçün atılan addım ola bilər. Qanun pozuntuları, seçki saxtakarlığı bütün dairələrdə olub. Ona görə də əslində bütün dairələrdə nəticələr ləğv olunmalıdır. Əgər hansısa dairələrdə nəticələr ləğv edilərsə və yeni seçkilər təyin olunarsa, bundan sonra Müsavatın həmin dairələrdə seçkidə iştirak edib-etməyəcəyi barədə suala dəqiq cavab verərik. İndiki halda isə ehtimallar üzərində danışmağı düzgün hesab eləmirəm".

**Müsavat başqanının müavini Elman Fəttah isə dedi ki, qanunun tələbinə görə Konstitusiya Məhkəməsi seçkinin nəticələrinə baxarkən seçki ilə bağlı məhkəmə şikayətlərini məhkəmələrdən almalı və dəyərləndirməlidir. Müsavat Partiyası namizədlərinin 50-dən çox məhkəmə işi var. Konstitusiya Məhkəməsi seçkinin nəticələrinə dair ədalətli qərar qəbul edərsə, ilk növbədə bu seçki dairələrinin nəticələrini ləğv etməlidir:** "Müsavat Partiyası seçkilərin nəticələrinin ləğv edilməsi və təkrar seçkilərin keçirilməsi ilə bağlı tələb irəli sürüb. Digər tərəfdən isə seçkinin total qanun pozuntuları ilə keçməsi yerli və beynəlxalq ictimaiyyətdə şübhə doğurmur. Bu baxımdan Konstitusiya Məhkəməsi seçkilərin nəticələrini bütünlüklə ləğv etməlidir.

Belə bir qərar olarsa seçkilərə az da olsa etimad yaranar. Yalnız bu halda Konstitusiya Məhkəməsinin qərarı Müsavat Partiyası, həm də cəmiyyət tərəfindən əhəmiyyətli qərar sayıla bilər".

**AMİP katibi Elşən Mustafayev isə Konstitusiya Məhkəməsinin hansısa dairələrin nəticələrini ləğv edəcəyinin ciddi əhəmiyyət kəsb eləməyəcəyini bildirdi:** "Birincisi, 8-9 dairədə yekun nəticələrin ləğv ediləcəyi ehtimalı çox azdır. İkincisi, əgər 3-4 dairədə nəticələr ləğv olunsa belə, bu addım həmin dairələrdə ciddi seçki pozuntuları olduğu üçün atılmayacaq, başqa məsələlərə görə ediləcək. Əgər 3-4 dairədə nəticələr ləğv edilsə və həmin dairələrdə seçkilər 1 noyabrda keçirilmiş seçkilərdən daha pis olacaq. Ona görə də o dairələrdə seçkiyə qatılmağın mənası yoxdur. Təcrübə göstərir ki, bir neçə dairədə keçirilən təkrar seçkilərdə seçici fəallığı daha az olur və qanun pozuntuları daha geniş miqyasda həyata keçirilir".

❑ **Etibar SEYİDAĞA**



# Müxalifət xaricdən ixrac edilən inqilab ssenarilərində yer alıbmı...

## Pənah Hüseyn: "İnqilablar bir qayda olaraq daxildən olur..."

**Təqaüddə olan xüsusi xidmət orqanının polkovniki Tofiq Rəcəbovun bir neçə gün öncə "Yeni Müsavat"a müsahibəsi ölkədə əks-səda doğurub. Polkovnik müsahibəsində iki il öncə prezident seçkiləri ərəfəsində Rusiya vasitəsilə ölkəmizdə dövlət çevrilişinə cəhd olunduğunu, bunun üçün 18 milyard pul ötürüldüyü, lakin pulların Bakı Hava Limanında saxlanıldığını bildirib.**

2000-ci ildə işdən çıxarılan T.Rəcəbov dövlət çevrilişi planının başında sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun dayandığı barədə sensasion faktlar açıqlayıb. Polkovnik 18 milyardın Beynəlxalq Bankın sabiq prezidenti Cahangir Hacıyev tərəfindən götürüldüyünü də iddia edib. O, məbləğin xaricə göndərildiyini, bu prosesdə iki gün öncə deputatlığı əlindən alınan Çingiz Əsədullayev vasitəsilə "Azəriqazbank"dan istifadə olunduğunu söyləyib.

Azərbaycan müxalifətinin iddia olunan inqilab ssenarisində rol alıb-almadığı haqda isə polkovnik konkret nə isə açıqlamayıb.

Bəs Azərbaycan müxalifəti indiyə qədər xaricdən ixrac olunan inqilab ssenarilərində hansısa şəkildə iştirak edibmi?

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** öncə bildirdi ki, Azərbaycandan yüz milyonlarla, milyardlarla pulların çıxarıldığından söhbət getsəydi, daha inandırıcı olardı: "Amma Azərbaycana 18 milyard pul gətirilməsi söhbəti inandırıcı görünmür. Müxalifətin indiyə qədər hansısa xaricdən ixrac edilən inqilab ssenarilərində yer aldığı barədə bir şey deyə bilmərəm. Bundan sonra da müxalifətin belə ssenarilərdə yer alıb-almayacağı haqda da konkret fikir söyləmək çətin olar. Mənə elə gəlir ki, inqilablar bir qayda olaraq daxildən olur və daxildən olmayanda fəsadlar törədir".

Xatırladaq ki, 2013-cü il prezident seçkilərindən öncə Azərbaycanda Rusiyanın hakimiyyət dəyişikliyi planları olduğu haqda böyük səs-küy yaradan proseslər müşahidə edilmişdi. Rüstəm İbrahimbəyov və "Milyarderlər ittifaqı" projeləri dövriyyəyə buraxılmışdı.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 259 (6287) 21 noyabr 2015

# Hilal Əsədovun vəzifədə qalmasının sirr: "istintaqla əməkdaşlıq edir"

## Generalın 3 ay əvvəldən Eldar Mahmudovla "bağları qırdığı" haqda məlumatlar var

**Eldar Mahmudova yaxınlığı ilə seçilən general-leytenant Hilal Əsədov müəmması davam edir. Ötən ayın 19-da prezidentin Eldar Mahmudovla bağlı qəfil sərəncamı oxunduqdan sonra ona yaxın olan Hilal Əsədovun da tutduğu postdan uzaqlaşdırılacağı gözlənilirdi. Hətta belə xəbərlər də vardı ki, nazir müavininin mənzilində axtarış aparılıb. Noyabrın 14-də isə nazir müavinin tutduğu postdan uzaqlaşdırılması xəbəri gəldi. Lakin Milli Təhlükəsizlik Nazirliyindən Hilal Əsədovun vəzifəsindən azad olunması ilə bağlı yayılan xəbərlərin heç bir əsası olmadığı açıqlandı.**



Eldar Mahmudovun işdən çıxarılmasından sonra eks nazirin özünün də məsuliyyətə cəlb olunacağı haqda xəbərlər vardi. Lakin bu gün E.Mahmudovun özü də Badamdardakı dəbdəbəli imarətində istintaqdan kənar qalmış kimi görünür. Ona yaxın iki general-leytenantdan biri - adları həmişə qoşa çəkilən Hilal Əsədovun paqondaşı Akif Çovdarov artıq həbsdədir. A.Çovdarova elan edilmiş çeşidli ittihamlar sırasında adam oğurluğu, qanunsuz olaraq azadlıqdan məhrum etmə, hədə-qorxu ilə tələb etmə və digərləri var. Belə bir halda Hilal Əsədovun tutduğu postda qalması haqlı suallar yaradır.

Hilal Əsədov Eldar Mahmudova xüsusi yaxınlığı ilə seçilən, onun tərəfindən MTN-ə cəlb olunan və yüksək vəzifələrə irəli çəkilən biridir. O, bu illər ərzində qurumda törədilən cinayətlərə ən azından şahidlik edib, susqun seyrçi mövqe sərgiləyib.

Hərçənd ki, onun adı bir çox cinayətlərdə qırmızı xətlə keçir. Məsələn, bir müddət əvvəl "Yeni Müsavat"a təşrif buyurmuş "Karvansaray" ticarət mərkəzinin payçılarından biri Elşən Kərəm oğlu H.Əsədovla bağlı bunları demişdi: **"Bizim MMC-nin rəhbərini Akif Çovdarov yanına çağırıb təhqir edir, söyürdü. Növbəti gün də Hilal Əsədov bunu təkrar edirdi. Onu kabinetə salıb kondisioneri maksimum isti rejimə qoyurdular. Həmin vaxt çöldə 40 dərəcə isti olurdu".**

Bakının "8-ci kilometr bazarı"nın bir hissəsinin zorla sahibindən alınması və ora öz yaxın qohumunu təyin etməsi də Hilal Əsədovun adı ilə bağlıdır. Bunlar sabiq nazirin hazırda vəzifədə olan müavini haqda mətbuat səhifələrinə yol tapmış əməlləri haqda məlumatlardır. Belə əməllərin mətbuat səhifələrinə çıxmayanı nə qədərdir?

**"Azpolitika" H.Əsədovun üzdə qala bilməsi haqda maraqlı məlumat yayıb. Sayt yazır:** "Eldar Mahmudovun işdən azad olunmasından 1 gün sonra prezident İlham Əliyevin dar çevrə ilə keçirdiyi müşavirədə MTN-in bir neçə baş idarə rəisi ilə yanaşı Hilal Əsədov da iştirak edib. İclasdan sonra onun təklikdə prezidentin qəbulunda olduğu haqda da məlumatlar var. Sonrakı günlərdə isə Hilal Əsədov hər gün işə çıxıb, hətta Rusiya prezidentinin MDB ölkələri xüsusi xidmət orqanlarının rəhbərləri ilə görüşündə də iştirak edib".

**Bundan başqa, saytın istinad etdiyi qaynaq H.Əsədovun sabiq nazirin əleyhinə yönəlik ifadələrinin olduğuna da işarə edir:** "Hilal Əsədov yeni rəhbərlik və istintaq tərəfi ilə əməkdaşlıq yolunu tutduğuna görə həlelik formal da olsa vəzifəsini saxlayır və məsuliyyətdən kənardadır. Bəzi məlumatlara görə isə Hilal Əsədov Eldar Mahmudov vəzifəsindən azad olunduqdan xeyli əvvəl - təxminən 3 ay öncə qarşı tərəflə əməkdaşlığa başlayıb. Bu "gedişi" onu məsuliyyətdən tam azad etməsə də, müəyyən qədər münasibəti yumşaldıb".

❑ **E.HÜSEYNOV**

# Generalın xanımının səsini gizli yazıblar?

## Nüşabə Əsədova: "Mən heç bir jurnalistə açıqlama verməmişəm"

### Nazir müavininin xanımı adından yayılan müsahibəni təkzib edir

**Günün ən sensasion hadisələrindən biri heç şübhəsiz ki, milli təhlükəsizlik nazirinin birinci müavini Hilal Əsədovun həyat yoldaşı Nüşabə Əsədovadan alınan açıqlama idi. N.Əsədova criminal.az saytına açıqlamasında həyat yoldaşının həbs olunmadığını, bu xəbərləri onun bədxahlarının yaydığını demişdi.**

Musavat.com N.Əsədova ilə əlaqə saxlayaraq həm son durumu, həm də verdiyi açıqlamalarla bağlı əlavə məlumat öyrənmək istəyib. N.Əsədova ümumiyyətlə mətbuatla bu və ya digər formada əlaqə saxlamaq istəmədiyini bildirib: "Mənə heç kim zəng etməsin və söz soruşmasın. Mən danışmayacam".

**N.Əsədovaya bundan öncə verdiyi açıqlamanı xatırladanda isə bildirib ki, o, heç bir media nümayəndəsi ilə görüşməyib və açıqlama verməyib.** "Bəs yazılanlardan xəbəriniz varmı" sualına cavabda isə general xanımı "Bilmirəm, xəbərim yoxdur, gizli yazıblar, özlərindən yazıblar. Deyə bilmərəm. Heç kimlə danışmamışam. Siz də bir daha məni narahat etməyin".

Musavat.com xatırladır ki, N.Əsədova 14 saylı uşaq poliklinikasının baş həkimidir. O, daha öncə bu poliklinikada sıravi həkim olub. Həyat yoldaşı nazir müavini olandan sonra isə N.Əsədova poliklinikaya baş həkim təyin edilib.

**N.Əsədova criminal.az-a açıqlamasında bildirmişdi ki, Hilal Əsədov hazırda işdədir, MTN-də, öz kabinetində, iş başındadır:**

"Onun işdən çıxarılması ilə bağlı məlumatları bizi sevməyən düşmənlər yalandan yayırlar. Ancaq onların arzuları ürəklərində qalır. Hilal Əsədov bu dəqiqə işdədir, MTN-də kabinetində oturub. Onun işdən çıxarılmağı yalandır. Prezidentin sərəncamı nə vaxt olub ki? Bunu yəqin kimsə məqsədli şəkildə yayır. Hilal müəllimin vəzifəsi elədir ki, onu çıxarmaq üçün ancaq prezidentin sərəncamı olmalıdır. Bunun üçün ancaq prezident qərar verə bilər. Kimsə ağzına gələni yazdırır, axı bu düz deyil".



Nüşabə Əsədova

Baş həkim demişdi ki, bir neçə gün əvvəl yaşadıqları evin şəklini də çəkiblər, deyirlər, guya evdə axtarış olub. Kiminsə kimsəni cəzalandırması düz deyil axı...

**N.Əsədova həyat yoldaşının Bakıda hotelləri və obyektləri olması məsələsinə də aydınlıq gətirib:** "Hotelimiz, obyektimiz var ki, əlimizdən də alınsın? Həyat yoldaşımın bir obyekti belə yoxdur. O, təmiz işləyən adam olub. Hilal müəllim dövləti, milləti üçün təmiz işləyən bir şəxsiyyətdir. Haradadır o obyektlər? Göstərsinlər, mən də yerini tanıyım. Murdar adamlar yayırlar belə məlumatları. Siz gəlib evimə, bağıma baxsanız, görərsiniz ki, heç nəyimiz yoxdur. Bir obyekt belə yoxdur, hələ onun sayını çoxaldırlar. Belə bir misal var: yaddan çıxıb gözdən düşmə, amandır. Yəqin bizi yaddan çıxmağa qoymurlar. Ona görə də Hilal müəllim haqda məlumatlar yayır, canfəşanlıq edirlər".

**Nazir müavininin xanımı vəzifənin ömürlük olmadığını vurğulayıb:** "Çıxaranda da çıxararlar. Vəzifə hamı üçün ömürlük deyil ki... Cənab prezident sərəncam verib çıxardar, canı sağ olsun. Vəzifə ancaq bizim üçün deyil ki. Çıxaranda da gedib xidməti təqaüdünü alar. Yoldaşım 11 il MTN-də can qoyub. Antiterror idarəsində zülm çəkib bu insan. Niyə ağızlarına gələni yazırlar?"

Bütün hallarda general xanımı səviyyəsində bu açıqlamanın verilməsi nonsens sayılırdı. Musavat.com hesab edir ki, N.Əsədovanın bu ərəfələrdə hansısa bir media orqanına müsahibə verməsi inandırıcı görünmür. Ortada iki versiya var: **1.** Çox güman ki, söhbət dostcasına olub və o, bunun mediada yayımlanacağından xəbərsiz olub. **2.** Bu müsahibəyə görə ona həyat yoldaşı tərəfindən ciddi təpki olub. Bu səbəbdən də baş həkim indi dediklərini təkzib etmək zorunda qalır.

# Əzrayılın uşaq paylaması...



**Hüseynbala SƏLİMOV**

**Keçmiş sovet düşərgəsindəki bütün siyasətçilərin hərəsinin bir özəl, xarakterik cəhəti var. Bu mənada Qazaxıstan prezidenti N.Nazarbayev də istisna deyil...**

Fikir verməmişik, o, daim Rusiyanı şirnikləndirə biləcək böyük inteqrasiya layihələri ilə çıxış edir. Amma elə özü də tez bir zamanda həmin layihələrə qarşı çıxır. Bunun özü də bəlkə onun göstəricisidir ki, əslində heç kim Rusiya ilə bağlı böyük layihələrin perspektivinə inanmır. Hamı, sadəcə, çalışır ki, özünü Rusiyanın neqativ təsirlərindən hifz edə bilsin...

Avrasiya İttifaqı layihəsinə gəldikdə isə onun səmərəliliyi haqqında söz demək bəlkə də tezdir. Amma N.Nazarbayev belə düşünmür. O bu yaxınlarda bildirib ki, Avrasiya İttifaqına üzv olmaq onun ölkəsinin iqtisadiyyatı üçün bir o qədər də müsbət nəticələrə gətirib çıxarmadı, əksinə, rublun dəyərdən düşməsi, Rusiyaya qarşı tətbiq olunan sanksiyalar Qazaxıstanın iqtisadiyyatı üçün problemlər yaratdı...

Bir daha deyirik ki, bunları N.Nazarbayev deyib - bəli, V.Putinlə birgə Avrasiya İttifaqı layihəsinin əsas ideoloqlarından və icraçılarından biri. Elə bu səbəbdən də bu İttifaqla bağlı hələ də yüksək fikirdə olanlar üçün bu, bir növ görk ola bilər...

Açığı, Azərbaycanda Avrasiya İttifaqı ilə bağlı yüksək fikirdə olanlar çox azdır. Sadəcə, Qarabağ problemini bu məsələ ilə bağlamaq cəhdləri var. Bunu prinsipcə, normal qəbul etmək olardı, əgər bir detal olmasaydı. O detal da budur ki, kim zəmanət verər ki, Avrasiya İttifaqına üzv olacağımız təqdirdə Qarabağla birlikdə bütün Azərbaycanı itirməyəcəyik?..

Təəssüf ki, belə zəmanət yoxdur. Elə MDB ilə bağlı da bir vaxtlar deyirdilər ki, bu, keçmiş sovet ölkələrinin Rusiyadan "mədəni ayrılma" yoludur. Amma sizə elə gəlmirmi ki, bu yol çox uzun çəkdi?

İnsanlar, müstəqil və qeyri-müstəqil təhlilçilər məsələyə kifayət qədər praqmatik baxır və diqqəti belə bir detala yönəldirlər ki, Azərbaycanın xarici ticarət dövriyyəsinin yalnız 12-15 faizi MDB ölkələrilə bağlıdır. Ölkə iqtisadiyyatı neftə və qaza görə əsasən Avropa ölkələrilə bağlıdır. Düzdür, bu məsələnin bir tərəfi də var- güman ki, MDB ölkələrilə bağlı olan əsasən qeyri-neft təyinatlı sahələrdir. Bu sahələrin inkişafı, onların genişlənməsi Azərbaycan üçün həyati məna kəsb edir. Ona görə də adama ilk baxışda belə bir fikir məntiqli görünür ki, qeyri-neft sektoruna görə ölkə MDB dövlətlərilə əlaqələri genişləndirməlidir...

Amma Əzrayılın uşaq paylaması haqdakı lətifəni də unutmaq olmaz. Həm də iqtisadi əlaqələr ikitərəfli məzmun kəsb edir, əgər bir ölkədən tələb olmasa o biri ölkədən təklif də gəlməz...

Ona görə də demək istəyirsən ki, Avrasiya İttifaqı olmadan da keçinə bilərik.

Onsuz da Rusiya bizə heç nə qaytarası deyil. Burada bir daha adamın yadına həmin məşhur lətifə düşür, hansını ki, bir az əvvəldə xatırlatdım...

Qərəz, kəndə xəbər yayılır ki, Əzrayıl uşaq paylayır. Gəl, camaat baxıb görür ki, bir kişi heç onlara qoşulmur, sevinmir, deyib-gülmür...

Soruşurlar ki, ay filankəs, sən niyə sevinmirsən? Kişi qayıdır ki, bəs mənim uşaqlarıma toxunmasın, Əzrayılın uşaqları mənə gərək deyil...

İndi Rusiyanın da layihələrinə eyni münasibət sərgiləmək olar. Qazaxıstanı və onun prezidentini başa düşmək elə də çətin deyil. Qazaxıstan böyük ölkədir və əhalisi də az, həm də polietnik tərkiblidir. Ona görə də qazax prezidenti daim Rusiya ilə "oynayır". Amma məsəl var, deyirlər ki, ayının min oyunu var, hamısı da bir almanın üstündədir. İndi N.Nazarbayevin də bütün oyunları elə vahid və bölünməz Qazaxıstana görədir...

Adam bilirsiniz nə fikirləşir? Srağagün Yunanıstanın baş nazirinin Türkiyəyə səfərini göstərirdilər. Yunanıstan da uzun müddət Türkiyə üçün baş ağrısı olmuşdu. Amma bütün bunlar tədricən sovuşur, əvəzində isə həyata normal və praqmatik siyasət gəlir. Bu epizodlara baxanda fikirləşdim ki, kaş, Qafqazlarda da belə oyanış baş verəydi, münaqişələrə son qoyulaydı, normal və praqmatik məntiq üstün gələydi...

O vaxt nə qədər şey dəyişə bilərdi?! Lap açığı Rusiyanın Qafqaza müdaxilə imkanları bəlkə də yüz dəfə azalardı. İndi təəssüf, Qafqazda siyasi dumanların çəkilməsinə məhz Rusiya imkan vermir...

Fəqət, hər şeyin bir sonu var. Bir gün Qafqazda da siyasi havalar aydınlaşmalıdır. Amma bunun üçün düzgün istiqamət götürmək tələb olunur. Özü də indidən...



# Pöpüş məsələsi

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud cordanabənzər qoduşların lüğəti

**Son çağlar Azərbaycan cəmiyyətində adlar çox müzakirə olunur. Həm insan, həm əşya adları. Cürbəcür terminlər, anlayışlar diqqət mərkəzindədir.**

Örnək üçün, bir də görürsən kimsə xəbər yazıb: "Son 5 ildə ölkəmizdə iki qıza Həsənağa adı verilib". Ədliyyə Nazirliyinin adından yazır. Qalırsan mat-məəttəl. Yaxud siyahı açıqlanır ki, indən belə bu adların uşaqlara qoyulmasına icazə verilməyəcək: "Dilənçi, Dəfinə, Çələng, Cicigül, Cazibə, Düymə, Əyalət, Əcəb, Əmanət, Fağır, Fani, Gerçək, Haqq və sairə".

Dünən isə deputat-alim-dilçi Nizami Cəfərovun bu yöndə yöndəmsiz açıqlaması vardı. Nizami müəllimə sonra qayıdarıq, hələlik bu etimoloji diskussiyaların psixoloji-sosial köklərinə diqqət edək.

Məncə, azərbaycanlıların adlar üzərində düşünməyə başlaması bizim dünyaya yeni gəlişimizlə bağlıdır. Biz hələ indi-indi əşyalara və canlılara ad qoyuruq. Pis anlaşılmasın, biz qədim xalqıq, sadəcə indiyə qədər neft-qaz gəlirləri bizi adlar üzərində düşünməyə qoymurdu. Adamın pulu çox olanda gözü heç nə görmür axı. Nəyə istəsən, nə ad istəsən qoya bilirsən. Bir az da sadələşdirim. Örnək üçün, neft pulu çox olanda Eldar müəllim istənilən sahibkarı MTN-ə gətirib qatığı göstərə, "bu, armuddurmu?" soruşa bilərdi. Sahibkar "bəli, yoldaş nazir, qarpızdır" deyərdi, buna görə döyüb 100 minini alardılar, düzgün cavab isə "pomidor" olardı. Proses təxminən bu cür idi. İndi isə adlar dəqiqləşməlidir. Böhrandır. Kimin kim olduğu bilinməlidir.

Bu baxımdan, dünənə qədər uşağa Dilənçi adı qoysan da gözə girmirdi. Əmanət adı da həmçinin - banklarda nə qədər əmanət batıb, pul ölüb, baş bankir camaatın yastığına əl uzadır, bu durumda uşağa Əmanət adı qoymaq olarmı? Haqq ümumiyyətlə olmaz. Rüşvətxorluğa qarşı mübarizəyə başlamışıq. Cicigül isə hökumətə, Gül bayramına sataşmaqdır. Gerçək də onun kimi. Mən Ədliyyə Nazirliyinin bu yeni ad siyasətini dəstəkləyirəm. Hərçənd ədliyyə sözünün özü heç bizim dildə yoxdur, nazirliyin adından başqa bunu hansısa yerdə işlədən varsa ərəb olum.

"Hansısa yer" demişkən, vaxtdır, Nizami müəllimin dilçi analizinə baxaq. Görkəmli xəngəlşünas-filoloqmuz bəyan etmişdir ki, orfoqrafiya lüğətinə təzədən baxmalıyıq. Sitat: "Hər hansı azərbaycanlının həyatda cəmi bir dəfə işlətdiyi söz də lüğətə düşməlidir". Nizami müəllim bunu təzə çapdan çıxan orfoqrafiya lüğətimizdəki bəzi sözlərə dəstək üçün demişdir. Orda "cırt-pırt, cırınqahaçırınq, cordanabənzər, taqq, cacıq, gəllahay" kimi sözlər varmış.

Doğrudan da əla konsepsiyadır. Məsələn, zırt-zurt, fısss, daramb kimi sözlər lüğətimizə girməlidir. Hər bir azərbaycanlının sözü nəzərə alınırsa, mənim balaca oğlum duduşuna pöpüş deyir, Nizami müəllim bunu niyə lüğətinə salmasın? Kimdən əskiyik? Gül kimi də sözdür. Pöpüş. Romantik səslənir. Öpüşlə də qafiyədir - sabah AYB üzvü şairlər istifadə edər. Yoxsa nə qədər "balta-xalta" qafiyəsi olar?

O cümlədən piş-piş, dümbələk, mızqlet kimi sözlər lüğətə salınsın. Mızqleti rəhmətlik dostumuz, jurnalist Elçin Səlcuq çox işlədirdi.

Lüğətdə "abad" sözü abadan, abadanlıq, abadanlanma, abadanlanmaq, abadanlaşma, abadanlaşmaq, abadlanma, abadlaşdırma, abadca, abadıstan və sairə şəklində də verilib, Nizami müəllim bunu da bəyənməyib, deyir abad bəs imiş.

Çox yanlış, hətta zərərli fikirdir. Biz yaxşı bilirik ki, abadlıqla abadca, həmçinin, abadıstanla abadan nə qədər fərqli sözlərdir. Örnək üçün, əgər sən 10 ildə Bakının Xaqani küçəsini 20 dəfə qazıb təmir edə bilmirsənsə, bunu abadlaşdırma işləri adlandırmaq olar. Ancaq Biləcəri-Binəqədi yolu 3 il itin günündə qalırsa, millət palçıqda boğulursa, bu abadca-dır. Abadıstan bulvardırsa, abadanlanmış yer Astaradır.

Təzə lüğətimizdə "qoduş" deyə bir yeni söz də artırılıb. Düzü, bunun mənasını heç mənim kimi dilçi alim də bilmir, amma nə ziyanı? Dilimizi korlayan adamlara qoduş deyə bilərik. Yəqin çoxmənalı sözdür.

Beləcə, biz də zəngin dilli xalqlar sırasına daxil olduq. Təzə lüğətimizdə 120 min söz varmış. Əhsən. Yoxsa bəzi qoduşlar mırıldanırdı ki, dilimiz zəngin deyil. Cordanabənzər ağzıheyvərə cacıqlar, çezala olun.

# Dünyanı qorxuya salan terrorçuların "pul kisəsi" kəsilməsə...

**Dünyanın hətta ən qüdrətli ölkələrinin gözünü amansız terror aktları ilə qorxudan İŞİD-ə qarşı birgə mübarizə strategiyası hazırlanır. Hətta ABŞ kimi superdövlət belə indi ölkədə təhlükəsizlik tədbirlərini artırıb. Rusiya da noyabrın 20-də qanunverici orqanlar-Dövlət Duması və Federasiya Şurası birgə tədbir keçirərək, İŞİD-ə qarşı tədbirlər planını razılaşdırıblar. Noyabrın 19-da isə Azərbaycan prezidenti İlham Əliyev də terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə tədbirlərinin sərtləşdirilməsinə dair fərman imzalayıb.**




# İŞİD-ə Azərbaycandan kimlər pul göndərib - təfsilat

## Rusiya nəşri Azərbaycandan İŞİD terror qruplaşmasına pul köçürmələrinin qeydə alınması barədə sensasion xəbər yayıb; rəsmi Bakı hər hansı bir terror təşkilatına göndərildiyi şübhəsi olan ən cüzi məbləği belə ciddi araşdırmalıdır; Avropadakı teraktlar göstərdi ki, bu terror təşkilatının qanlı ideolojisini daşıyan bir nəfər belə istənilən ölkə üçün ciddi təhlükədir...

Bu arada Rusiya xüsusi xidmət orqanları Azərbaycandan İŞİD terror qruplaşmasına pul köçürmələrinin qeydə alınması barədə sensasion xəbər yayıb. "İzvestiya" qəzetinin İŞİD-in maliyyə qaynaqlarının kəsilməsi üçün göstərilən səylərdən bəhs edən məqaləsində deyilir ki, noyabrın 18-də Rusiya prezidenti Vladimir Putin bu məqsədlə xüsusi komissiya yaradıb.

Türkiyədə keçirilən G20 sammitində isə Putin deyib ki, Rusiyanın əldə etdiyi məlumatlara görə, terrorçulara maliyyə 40 ölkədən daxil olur.

Və belə ölkələrin arasında Rusiyanın özünün də yer aldığı dəqiqdir. "Rosfinmonitorinq"dən "İzvestiya" qəzetinə daxil olan məlumatlara əsasən, 2013-2014-cü illər ərzində Rusiyanın 80 regionundan 3500-ə yaxın rusiyalı terrorçu qruplaşmalara pul vəsaitləri göndərib. Bu il isə xüsusi xidmət orqanları İŞİD-ə 300 milyon rubl göndərildiyini qeydə alıb.

Rusiya xüsusi xidmət orqanları müəyyən edib ki, İŞİD-ə yardımın toplanılması əsasən sosial şəbəkələr üzərindən həyata keçirilir. Pullar sürətli pul köçürmələri sistemləri üzərindən ötürülür. Maliyyə araşdırmaları göstərir ki, pul vəsaitlərinin xeyli hissəsi münaqişə zonalarına yaxın ölkələrdə nağdlaşdırılır. Hazırda Rusiya xüsusi xidmət orqanları Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Belçikanın maliyyə kəşfiyyatlarının iştirakı ilə bir sıra maliyyə araşdırmaları aparır. Eyni zamanda İŞİD-ə bağlı olan şəxslərin aşkara çıxarılıb zərərsizləşdirilməsi üçün MDB ölkələri ilə birgə əməliyyat hazırlanır.

**"İŞİD-in fəaliyyət zonaları ilə həmsərhəd olan ölkələrə pul köçürmələri sistemi ilə ötürülmüş maliyyə vəsaitlərinin analizi aparılır. İlkin analizə görə, biz əhəmiyyətli həcmdə əməliyyatların həyata keçirildiyini görürük. MDB ölkələrindən birinci yerdə Qazaxıstandır, ikinci Azərbaycandır, üçüncü yerdə isə Türkmənistan gəlir"** deyə, "İzvestiya"ya danışan mənbə qeyd edib.

***

Azərbaycanda İŞİD-in və digər terror qruplaşmalarının ideoloji daşıyıcılarının olması artıq təsdiqlənmiş faktdır. 2011-ci ildən Suriyada Bəşər Əsədə qarşı başlamış "cihad"a Azərbaycandan da qoşulanlar var. Məlumatlara görə, azərbaycanlılar Suriyada daha çox "Əl-Nüsrə" yaraqlılarına qoşulsalar da, ölkədən gedən azərbaycanlıların 60 faizə qədəri İŞİD-in tərkibində vuruşmağa üstünlük verirlər. Qeyri-rəsmi məlumata görə, indiyədək terror qruplaşmalarına qoşulan azərbaycanlılar arasında ölənlərin sayı 250-dən çoxdur. Döyüşənlərin sayının isə 500 nəfər olması barədə xəbərlər var. Türkiyə mətbuatı bu mövzudan yazarkən Azərbaycandan bu ölkə vasitəsilə gedənlərin məhz İŞİD-ə qoşulduqlarını qeyd edib.

Təsadüfi deyil ki, Türkiyədə sonuncu anti-İŞİD əməliyyatında saxlanılanların əksəriyyəti Azərbaycan vətəndaşları olublar. Onlar İŞİD-ə qoşulmaq üçün Türkiyə sərhədini keçmək istəyirmişlər. Məlumdur ki, azərbaycanlılar İraqda İŞİD-in "Qafqaz əmirliyi"nin tərkibində döyüşürlər. Suriyada döyüşən azərbaycanlı İŞİD-çilər isə heç bir əmirliyin tərkibinə daxil deyil. Ayrıca "Azəri camaatı" qruplaşması adı altında fəaliyyət göstərirlər. Təsadüfi deyil ki, "Azəri camaatı" bir neçə dəfə müraciət yayaraq "İŞİD-in düz yolda olduğunu" bəyan edib. Bəzi mənbələr İŞİD-ə qoşulan azərbaycanlıların sayının 500 yox, təxminən 200-dən artıq olduğunun iddia edir. Azərbaycanda bunun rəsmi statistikası təəssüf ki, bu günədək də açıqlanmayıb.

***

Azərbaycan hüquq-mühafizə orqanları radikal qruplaşmaların tərkibində döyüşənləri zaman-zaman həbs və məhkum etsə də, onların sırasında İŞİD-çilər azdır. Amma bu heç də o demək deyil ki, dünyanı vahimə içərisində saxlayan İŞİD-də qoşulan azərbaycanıların sayı da azdır. Avropadakı teraktlar bir daha sübut etdi ki, İŞİD sıralarını genişləndirmək planından daha çox, bu terror ideologiyasına bağlılığa üstünlük verir. İŞİD Fransaya ordu yeritmədi, amma üç-dörd terrorçu-kamikadze ilə ölkəyə sağalmaz yaralar vurdu. Bu bir daha göstərir ki, İŞİD-ə qoşulan, bu terror təşkilatının qanlı ideolojisini daşıyan bir nəfər belə istənilən ölkə üçün ciddi təhlükədir.

***

İŞİD-in maliyyə qaynaqları Türkiyədə keçirilən G-20 sammitində bir daha gündəmə gəldi. İraqda zəngin neft yataqlarını ələ keçirən İŞİD-in, məsələn, Azərbaycanda bir neçə tərəfdarının qəpik-quruşuna ümid edə biləcəyi absurddur. Məlumdur ki, müxtəlif radikal silahlı qruplaşmalar öz tərəfdarları vasitəsilə maliyyə qaynağı yaradırlar. Radikal dini qruplaşmaların üzvlərinin Azərbaycanda da iqtisadi baza yaratdıqları sirr deyil. Onlar Azərbaycanda hətta böyük ticarət obyektlərinə də nəzarət edirlər ki, əldə olunan gəlirin böyük hissəsi ən müxtəlif üsullarla döyüşən radikallara ötürülür. Onlar əldə etdikləri vəsait hesabına radikal mərkəzlər yaradaraq yeni üzvlər də cəlb edirlər və sair.

Bir müddət əvvəl bu mövzudan danışan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı da bu faktların olduğunu təsdiq etmişdi. **"Bununla aidiyyəti qurumlar artıq məşğul olur. Çünki radikal, ekstremizmə meylin qarşısını almaq üçün onların iqtisadi bazasını sarsıtmaq lazımdır. Biz imkan verməyəcəyik ki, kimlərsə Azərbaycanda müxtəlif vasitələrlə maliyyə vəsaiti toplayıb bunu hansısa terrorçu qrupa və terrorçu niyyətlərə yönəltsinlər. Əgər kimlərsə burada vəsait əldə edib bundan Suriyaya, İŞİD-ə və başqa yerlərə gənclərimizi göndərmək üçün istifadə edəcəksə, bunun qarşısı alınacaq və dərhal bu vəsaitin mənbəyi məhv ediləcək"** deyə, komitə sədri bildirmişdi.

Rusiya mətbuatının İŞİD-ə maliyyə dəstəyi ilə bağlı məsələdə Azərbaycanın da adını çəkməsi rəsmi Bakını ciddi düşündürməlidir. Dünyada pulköçürmə sistemi nə qədər modernləşsə və kodlaşsa da, maliyyəyə nəzarət mexanizmi aradan götürülməyib. Azərbaycanın bəzi banklarının adı bir neçə dəfə müəmmalı maliyyə əməliyyatlarında, çirkli pulların yuyulmasında hallanıb. Mərkəzi Bankı terrorçuluqla məşğul olan şəxslərə maliyyə ötürülməsinə qarşı mübarizəni gücləndirib və "qara siyahı" da tərtib edib. Amma belə görünür ki, bütün bunlar yetərli deyil və hökumət hər hansı bir terror təşkilatına göndərildiyi şübhəli olan ən cüzi məbləği belə ciddi araşdırmalıdır. Bu, həm də İŞİD kimi dəhşət saçan terror qruplaşmaları ilə gizli bağları olanların ifşası üçün ən ciddi ip ucudur. Çünki İŞİD-in tərkibində vuruşan azərbaycanlılar terror təşkilatı ilə sıx əlaqəsi olan, döyüş təcrübəsi, amansız öldürmək təcrübəsi olan, silaha, terrorun digər resurslarına çıxışları olan təhlükəli adamlardır.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 259 (6287) 21 noyabr 2015

# Tiflisdən Bakıya qaz şantajı - yeni gəlişmə

## Prezidentin Gürcüstan səfəri də qonşu ölkəni işğalçı Ermənistan vasitəsilə İran qazı almaq planlarından çəkindirməyib; rusiyayönlü "boz kardinal"ın israrı Azərbaycan-Gürcüstan münasibətlərində soyuqluğa gətirə bilər...

**Rəsmi Tiflisin Azərbaycanın iqtisadi, strateji maraqlarına birbaşa toxunan müəmmalı qaz oyunu davam edir. Belə görünür, prezident İlham Əliyevin ayın əvvəlində qonşu ölkəyə elədiyi səfər də ikitərəfli münasibətlərdəki bütün "i"lərin üzərinə nöqtə qoymayıb. Hər halda, müşahidələr belə söyləməyə əsas verir.**

Həmin səfər rəsmi Bakı üçün mühüm olan iki məsələyə aydınlıq gətirməli idi: **1.** Gürcüstanın Azərbaycan qazını qoyub qəfildən Rusiya qazına göz dikməsi, Moskvaya meyllənməsi hansı zərurətdən doğub? **2.** Tiflis hökuməti gerçəkdənmi Ermənistan vasitəsilə İrandan qaz almaq niyyətindədir?



Birinci məsələyə gəlincə, iki gün öncə Tiflisdə hökumətin "Qazprom" şirkəti ilə danışıqların əleyhinə keçirilən etiraz aksiyası özlüyündə çox şeyi deyir. Xatırladaq ki, aksiya sabiq baş nazir Bidzina İvanişvilinin biznes-mərkəzinin yaxınlığında baş tutub. Bu da təsadüfi deyil, çünki indiki gürcü hökumətinin əsas ideoloqu və "boz kardinalı" məhz milyarder İvanişvili sayılır. Hakimiyyətdə təmsil olunmasa da hökumətin siyasi-iqtisadi kursunu o müəyyənləşdirir.

**"Gürcüstan hökuməti dekabradək "Qazprom"la anlaşma sənədi imzalamağa hazırlaşır. Bu o zaman baş verir ki, Azərbaycan bizə istənilən həcmdə qaz verməyə hazırdır. Rusiya qazı bahalıdır və stabil deyil, həmçinin şantaj silahıdır. Azərbaycan qazı isə ucuz və stabildir. Seçimin Rusiya və Azərbaycan arasında saxlanması açıq-aşkar qərarın iqtisadi yox, siyasi xarakterli olduğuna işarədir"**, - deyə aksiyanın təşkilatçısı olan "Platforma - Azadlığın müdafiəsi" aksiyasının təşkilatçıları bəyan eləmişdilər.

Yəni qonşu ölkənin öz daxilində də məsələ kifayət qədər etirazla qarşılanır və iqtisadi yox, məhz siyasi xarakterli layihə hesab olunur. Doğrudur, anlaşmanın imzalanma tarixi hələ dəqiq bilinmir. Lakin Gürcüstanın Energetika Nazirliyindən bəyan ediblər ki, imzalanma yaxın zamanlarda reallaşa bilər.

***

Bu arada Gürcüstanın baş nazirinin müavini, energetika naziri Kaxa Kaladze həm toplumu, həm də bir növ Bakını arxayın etməyə yönəlik açıqlama verib (APA). Nazir deyib: **"Biz hər il Rusiya ilə tranzit vasitəsilə qaz almaq barədə müqavilə imzalayırıq. Hər il də müqaviləni yeniləyirik. Dekabr ayınadək hələ vaxtımız var və biz bu barədə "Qazprom"la danışıqlar aparacağıq. Fikirləşirəm ki, hər şey yaxşı olacaq".**



Фото EPA

Onun sözlərinə görə, Azərbaycan qazı Gürcüstan hakimiyyəti üçün prioritetdir: **"Azərbaycan qazı nəinki bizim üçün prioritetdir, eləcə də Azərbaycan bir ölkə olaraq bizim strateji tərəfdaşımızdır. Biz Azərbaycan ilə uzun illərdir birgə işləyir, dostluq edirik, çox yüksək səviyyədə dostluq münasibətlərimiz var və bu yaxınlarda Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstana rəsmi səfəri bunu sübut edir. Bizim onunla yüksək səviyyədə görüşlərimiz oldu və hər bir sahədə razılığa gəldik. Azərbaycanın qaz saxlanılması layihəsində iştirak etmək üçün böyük marağı var və biz gələn il Gürcüstanda bu layihənin tikintisinə başlayacağıq. Bir sözlə, Azərbaycan bizim üçün çox vacib tərəfdaşdır və bu dostluq münasibətləri davam edəcək".**

Lakin gerçək budur ki, Gürcüstan KİV-ləri də müxalifət kimi "Qazprom"la gürcü hökumətinin son aylar apardığı danışıqları və Rusiya ilə qaz sahəsində münasibətlər qurmaq cəhdini siyasi qərar hesab edir. Nazir isə bu iddialarla razılaşmır: **"Bu xəbər yalandır. Gürcüstanda "Milli Hərəkat" adlı müxalifət var və onlar çalışır ki, bu münasibətləri siyasi istiqamətə yönəltsinlər. Bu, təmiz kommersiya müqaviləsidir ki, biz Rusiya ilə hər il imzalayırıq. Biz müqavilə imzalayaraq əlavə qaz alırıq və bu istiqamətdə heç bir problem yoxdur".**

Lakin nazirin sözlərinə rəğmən, fakt faktlığında qalır ki, Tiflis illərdir işğalçı saydığı bir dövlətdən - Rusiyadan alacağı qazın həcmini artırmaq fikrindədir. Ayrı sözlə, söhbət həqiqətən də sırf iqtisadi müzakirələrdən getmir.

***

Qaldı Tiflisin Ermənistan keçəcək boru kəməri vasitəsilə İran qazını almasına, energetika naziri bu barədə bildirib: **"Biz hələ gözləyirik ki, bu yöndə İranla münasibətlərimiz necə olacaq, əlbəttə, əgər imkan olarsa, biz bu məsələni müzakirə edəcəyik".** Yəni aydın olur ki, məsələ Əliyevin səfərindən sonra da gündəmdən düşməyib, aktuallığını azaltmayıb.

Bidzina İvanişvili isə Azərbaycan prezidentinin Tiflis səfərindən cəmi 5 gün sonra (!!) məsələ barədə danışarkən xüsusi vurğulamışdı ki, Gürcüstan İranla münasibətlərə, ilk növbədə də qaz anlaşmasına böyük önəm verir və "yəqin ki, tezliklə İrandan qaz alınması reallaşacaq".

**Sitat: "Bilin ki, İran, Çin və həmçinin Rusiya bizə mütləq lazımdır. İran qazı Gürcüstan bazarına daxil olsa, çox maraqlı olardı. Düşünürəm ki, böyük ehtimalla, belə də olacaq".** Sabiq baş nazir Tehranla möhkəm və dərin əlaqələrinin qurulmasının əhəmiyyətini qabardaraq əlavə etmişdi ki, özü danışıqlarda sahibkar kimi iştirak edir.

Beləliklə, İran qazının Ermənistandan keçməklə Gürcüstana çatdırılması ideyası da öz əhəmiyyətini saxlayır. Hər halda, gürcü "boz kardinal"ın açıqlaması buna şübhə yeri saxlamır. Nazirin son açıqlaması isə bu qənaəti möhkəmlədir.

Kəsəsi, prezident İlham Əliyevin Gürcüstan səfərindən sonra da qonşu ölkənin Ermənistan vasitəsilə İran qazı almaq sevdasından çəkinmədiyi üzə çıxır. Rusiyayönlü "boz kardinal" və komandasının bu israrı isə Azərbaycan-Gürcüstan münasibətlərində soyuqluğa gətirə bilər.

❑ **Siyasət şöbəsi**

---

# Müsəlmanların işarələnməsi



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**İŞİD-in Avropadakı terror hücumlarının altını ən çox Qərb ölkələrindəki günahsız, dinc müsəlmanların çəkəcəyini yazmışdıq. Artıq Avropada xristian olmayanlara qarşı dözümsüzlük ovqatı, kseno və islamofobiya, məscidlərə qarşı müxtəlif təxribatlar, hətta müsəlmanların evlərinin işarələnməsi özünü göstərməyə başlayıb.**

ABŞ-da prezidentliyinə namizəd, milyarder Donald Tramp isə təklif edir ki, müsəlman vətəndaşları seçdirmək üçün onlara xüsusi şəxsiyyət vəsiqələri paylansın. Sitat: "Biz əvvəllər atmadığımız addımları artıq atmalıyıq. Bu qərar bəzilərinin qanını qaraldacaq, lakin mən düşünürəm ki, hamı təhlükəsizliyin öz şərtlərini diktə edəcəyini anlayır".

Prezidentliyə namizəd həmçinin ölkədəki müsəlmanların xüsusi məlumat bazasının yaradılacağını istisna etməyib. Bundan az öncə isə o, Parisdəki terror aktlarına cavab olaraq Amerikadakı bütün məscidləri bağlamağı təklif eləmişdi. Yenə sağ olsun ki, insanları rezervuarlara doldurmaq təklifi verməyib.

Ən qorxulusu odur ki, siyasətdən xeyli uzaq olan bu ağıl yiyəsinin tərəfdarları ABŞ-da az deyil. Qorx ki, gələn il belə populist şüarlarla o, amerikanların əksəriyyətinin rəğbətini də qazansın. Halbuki ağlı yerində olan hər kəsə aydındır ki, vətəndaşları rəsmən dini mənsubiyyətinə görə bölmək - cəmiyyəti parçalamaq, onun ayrı-ayrı hissələrini bir-birinə qarşı qoyub aralarında ədavət toxumu səpmək, qlobal miqyasda isə sivilizasiyalararası toqquşmalara rəvac vermək cəhdindən savayı bir şey deyil.

Üstəlik, bu kimi avantürist addımların İslam aləmində adekvat cavabı da ciddiyə alınmalıdır: çünki mütləq haradasa bir müsəlman nasional-faşist təklif edəcək ki, xristianlar da seçdirilsin, evləri işarələnsin. Bununla terror təhlükəsi azalacaqmı? Belə əcaib təkliflər ona bənzəyir ki, binada işıq və qaz pulu verməyən məsuliyyətsiz adama görə borclarını vaxtlı-vaxtında ödəyən binanın bütün abonentlərinin işıq-qazını kəsirsən.

İkinci tərəfdən, bəyəm İŞİD təkcə xristianlara qarşı terror törədir? Əlbəttə yox. Avropada (Fransada), Rusiyada son aylarda üst-üstə 350 xristian terror qurbanı olubsa - hələ onların içində də müsəlmanlar var, İŞİD-in müsəlman qurbanlarının sayı-hesabı çoxdan itib. Hər gün uşaqlı-qadınlı-qocalı onlarla Məhəmməd ümməti terror aktına tuş gələrək həyatına itirir. Terrordan ən çox zərər çəkən İslam dininin daşıyıcıları deyil ki?

Şübhəsiz ki, dinindən asılı olmayaraq, hər bir günahsız insanın həyatı qiymətlidir. Di gəl, İslam ölkələrində, Türkiyədə müsəlmanların qətliamına Qərbdə, dünyada çox sakit yanaşılır. Sanki belə də olmalı imiş. Sanki həyatını itirənlər qarışqalardır. Bu azmış kimi, üstəgəl, xristian terror qurbanı olanda da az qala, bütövlükdə islam toplumu günahkar elan edilir, qaralanır. Vəsiqə söhbəti, məscidləri bağlamaq təklifləri, müsəlmanların evlərinin nişanlanması ayrı anlam daşımır.

Bu cür üsullarla - müsəlmanlar və xristianlar arasında inamsızlıq yaratmaqla, "qaşınmayan yerdən qan (yara) çıxarmaqla" dünya terror təhlükəsindən qurtulmayacaq. Əksinə, yalnız müxtəlif millət və dinin nümayəndələri arasında təmasları, dostluğu, əməkdaşlığı, inteqrasiyanı, etimadı gücləndirməklə, bir də müsəlman və xristian ölkələri arasında əməkdaşlığı gücləndirməklə bu işdə uğura çatmaq mümkündür.

Ən böyük məsuliyyət isə sözsüz ki, dövlətlərin, onların xüsusi xidmət orqanlarının üzərinə düşür...

***

"Terrorçulara olan kin və nifrət müsəlmanlara yönəlib. Biz ilk növbədə bunun qarşısını almalıyıq. Eyni zamanda dünyadakı 1.7 milyardlıq müsəlmanı bir qrup terrorçu ilə yan-yana qoya bilmərik. Cəhalətə, nifrətə, terrora, ədalətsizliyə qarşı mübarizə aparmağın vaxtıdır. Bütün müsəlmanları bu yolda səfərbər olmağa səsləyirəm".

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın G20 sammitində etdiyi bu çağırış əslində həm də xristian dünyasına, Qərbə və onun toplumlarına ünvanlanıb.

# İŞİD indi də ABŞ-ı hədəfə aldı - ölkəmiz təhlükədədirmi?

## Terror təşkilatı Nyu-Yorkda da partlayış törədəcəyini bəyan etdi; təhlükəsizlik yoxlamalarının bərbad vəziyyətdə olması ölkəmizi hara aparır?

**Dünya İŞİD təhlükəsi ilə çalxalanır. Hər keçən gün terror qruplaşmasının hədəfində olan ölkələrin sıraları genişlənir. Parisdəki məlum terror aktının ardından İŞİD indi də ABŞ-ı hədəfə alıb. Terror təşkilatı bir video yayaraq ABŞ-ın ən çox insan yaşayan Nyu-York şəhərində partlayış törədəcəklərini bəyan edib.**

İŞİD daha sonra yenidən Parisə hücumlar edəcəyini açıqlayıb. Nyu-Yorkda çəkilən videonun sonunda bir nəfər belinə bağladığı bombanın ipini çəkir.

ABŞ kəşfiyyatı və şəhər polisi videodan xəbərdar olduqlarını qeyd edərək araşdırma aparılacağını bildiriblər.

Göründüyü kimi, dünya ölkələri bu təhlükədən sığortalanmayıblar. Azərbaycanın da İŞİD-in hədəfində olub-olmaması hazırda müzakirə olunan əsas mövzulardan biridir. Xüsusilə Fransada baş verən məlum faciə bütün dünya ölkələri kimi, Azərbaycanı da hərəkətə gətirib. Son məlumatlara görə, indiyə qədər İŞİD sıralarında 250-yə yaxın vətəndaşımız həyatını itirib. Hazırda yüzlərlə İŞİD-in tərkibində döyüşmüş, sonradan Azərbaycana qayıdarkən hüquq-mühafizə orqanları tərəfindən həbs edilmiş şəxslərin məhkəmələrinin getməsi, artıq bu təhlükənin içərimizə doğru yeridiyini sübut edir.

Ölkəmizdə zaman-zaman təhlükəsizlik yoxlamalarının bərbad vəziyyətdə olması barədə fikirlər səslənib. Xüsusilə günlər öncə əməkdaşlarımızın Bakı metrosunda apardıqları müşahidələr ölkəmizin təhlükə içərisində olduğunu açıq şəkildə ortaya qoydu. Sərnişinlərin yoxlanılmasının dillə ifadə edilməyəcək dərəcədə bərbad vəziyyətdə olduğu əməkdaşlarımızın reportajından aydın görünürdü.

**Politoloq Ərəstun Oruclu hesab edir ki, İŞİD bu cür hədələrlə qlobal güc olduğunu göstərmək istəyir:** "İŞİD hamını təhdid edir. Bildiyiniz kimi, bundan əvvəl də bir video yayılmışdı. Orada İsrail təhdid olunurdu. Rusiya təyyarəsinə qarşı terror, Paris hadisələri, Beyrutda terror, ardınca ABŞ və İsrailin hədələnməsi ilə İŞİD göstərmək istəyir ki, qlobal gücdür. Onlarla hesablaşmağı istəyirlər. ABŞ mümkündür ki, bu təhlükənin qarşısını alsın. Almama ehtimalları da var. Çünki bunu nəzərətə götürmək asan məsələ deyil. Amma hər halda, müəyyən təcrübələri var. Azərbaycan ən çox təhlükədə olan ölkə sayıla bilməz. Amma terror təhlükəsindən heç bir ölkənin sığortalanmasını düşünməliyik".



**Ərəstun Oruclu:** "Bunu nəzarətə götürmək asan məsələ deyil"



**İlham İsmayıl:** "Azərbaycan son illərdə beynəlxalq terrorizmin hədəfidir"

**Sabiq MTN-çi İlham İsmayıl bildirdi ki, ABŞ dəfələrlə terrorun hədəfində olan ölkə olub:** "70-ci illərdəki "Qırmızı terror"un da hədəfində olan ölkələrdən biri ABŞ idi. Amerika üçün yenilik deyil. Aydın məsələdir ki, bu hədə-qorxudur. İŞİD, sadəcə, göstərmək istəyir ki, əgər ABŞ-ı hədəf almışıqsa, demək, digər dövlətlər heç nədir. Amerikada terror da edə bilərlər. Bu mümkündür. Amma düşünürəm ki, onların hədəfləri hələ ki digər dövlətlərdir. Fransa üç aylıq fövqəladə vəziyyəti təsdiqlədi. Orada xüsusi xidmət orqanları gücləndür. İŞİD son dövrlərdə böyük itkilər verir. Terror təşkilatından böyük qaçışlar ola bilər. Ortada yalnız radikalların qalması ehtimalları da var. Əsas məsələ Bəşər Əsəddir. Obama açıq şəkildə dedi ki, Əsəd məsələsi həll olunmayınca, İŞİD məsələsi həll olunmayacaq. Bu gün heç bir dövlət, hətta Rusiya da quru qoşunlarından istifadə etmək istəmir. Çünki bilirlər ki, İŞİD quru qoşunları ilə daha yaxşı döyüşməyi bacarır. Bu baxımdan hesab edirəm ki, Bəşər Əsəd məsələsi həll olunandan sonra İŞİD bitiriləcək".

**İ.İsmayıl Azərbaycanı gözləyən təhlükələrdən də söz açdı:** "Terror kampaniya deyil. Azərbaycan son illərdə beynəlxalq terrorizmin hədəfidir. Ölkəmizə qarşı bu amildən dəfələrlə təzyiq vasitəsi kimi istifadə olunub. Ayıq-sayıqlıq kampaniya xarakteri daşımamalıdır. İnsanların çox olduğu yerlərdə daim ayıq-sayıqlıq olmalıdır, ictimai nəzarət gücləndirilməlidir. Bu, gündəlik işdir. Onu kampaniyaya çevirmək mümkün deyil. Terror hadisəsi qəflətən baş verir. Onların siyasəti budur. İŞİD içərilərimizə artıq yeriyib. Ölənlərin sayı 250-dən çoxdur. Amma döyüşənlərin sayı daha çoxdur. Onların 500 nəfər olması barədə də xəbərlər var. Yerdə qalanların həbs olunması normal haldır. Ora gedib-gələnlər peşəkar terrorçu olurlar. Cəmiyyət bilməlidir ki, bu cür addımı atanları həbs gözləyir. Qabaqlayıcı tədbirlər baxımından çox yaxşıdır".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycan xalqı Qorbaçova qarşı niyə aqressivdir?

**SSRİ-nin 85 yaşlı ilk və son prezidenti Mixail Qorbaçovun ölüm xəbəri yenə də yalan çıxdı. BBC 85 yaşlı keçmiş prezident Mixail Qorbaçovun Almaniyada ürək tutmasından dünyasını dəyişdiyinə dair xəbər yayıb. Hətta xəbərdən sonra ABŞ prezidenti Barak Obama Qorbaçovun ölümünə görə yaxınlarına başsağlığı verib.**

Xəbər yayılandan dərhal sonra isə onun adını daşıyan fond bu xəbəri təkzib edib və Qorbaçovun ölmədiyini bildirdib. Xatırladaq ki, onun ölümü ilə bağlı xəbər artıq neçənci dəfədir ki, yalan çıxır. Hər dəfə bu xəbər yayılar-yayılmaz Azərbaycanda sosial şəbəkələrdə əhali Qorbaçovun ünvanına çox aqressiv sözlər, fikirlər bildirir.

Kimi onu Azərbaycan xalqının bir nömrəli düşməni adlandırır, kimi isə Azərbaycanın müstəqilliyə qovuşmasında müəyyən rolu olan adam kimi qiymətləndirir. Maraqlıdır, Qorbaçova olan bu aqressiyanın əsl səbəbi nədir? Onu doğrudan da Azərbaycanın bir nömrəli düşməni hesab etmək olarmı?

**Deputat Fazil Mustafa Qorbaçovun həm də bizi müstəqilliyə gətirən yolu açanlardan biri olduğunu dedi:** "Həmin şərhlər nəinki aqressiya daşıyır, orada müəyyən sağlam zəminin olmadığı bir daha görünür. Qorbaçov 20 Yanvar faciəsinə görə Azərbaycan cəmiyyətində bağışlanılmır. Amma heç bir tarixi şəxsiyyətə birmənalı münasibət bildirmək olmaz. Qorbaçov 20 Yanvarın cinayətkarlarından biridir və Azərbaycan xalqı üçün də böyük bir faciənin əsasını qoyanlardan biri olub. Amma Qorbaçov eyni zamanda bizim müstəqilliyə gətirən yolu açanlardan biridir. Həm də "yenidənqurma", "aşkarlıq siyasəti" nəticəsində sovet hökuməti dağılıb. Biz arzuladığımız bir müstəqilliyi əldə etmişik. Belə bir deyim var ki, kimisə öldür, amma haqqını yemə. Axı bu müstəqilliyi əldə etməyimizdə dolayısı ilə Qorbaçovun da rolu olub. Müstəqilliyin qazanılmasında Qorbaçovun başladığı yenidənqurma siyasətinin SSRİ-nin dağılmasında böyük rolu var. Buna görə də cəmiyyətdə əslində ikili münasibət olmalıdır. Müsbəti də qeyd etməliyik, mənfini də. Həm cinayətkar kimi münasibət bildirməliyik ki, bu bizim xalqın qanının tökülməsinə əmr verib, həm də müəyyən dərəcədə müsbət tərəfinə də qiymət verməliyik. Şəxsən mən "yenidənqurma siyasəti" nəticəsində SSRİ-nin dağılmasında onun böyük xidmətini görürəm. Ona görə də bunu hər zaman qeyd etmək lazımdır".

**Deputat Fəzail Ağamalı isə Qorbaçovun Azərbaycan xalqının bir nömrəli düşməni olduğunu dedi:** "Qorbaçov sözün həqiqi mənasında Azərbaycan xalqının düşmənidir. O öz əməli ilə də bunu sübut edib. Bu gün torpaqlarımızın 20 faizinin işğal olunmasında Qorbaçov həlledici və müstəsna rol oynayıb. Onun himayəsi altında Dağlıq Qarabağda erməni separatizmi başlayıb. Onun himayəsi altında bu separatizm Azərbaycana ərazi iddiası ilə davam edir və nəticədə Azərbaycanın 20 faiz torpaqları işğal edilib. Qorbaçovun digər bağışlanmaz günahı və cinayəti isə yanvar ayının 19-dan 20-nə keçən gecə sovet ordusunun bütün arsenalını Azərbaycana yeritmək və 20 Yanvar qanlı faciəsini törətməsi olub. Buna görə o ən ağır cəzaya layiq bir insandır. Azərbaycan xalqının ona münasibəti heç zaman dəyişməyəcək. O, Azərbaycan xalqının, sözün həqiqi mənasında, düşməni olaraq qalacaq. Mən qətiyyən şübhə etmirəm ki, onun Azərbaycan xalqına və ölkəmizə qarşı törətmiş olduğu cinayətlərin əsl hüququ qiyməti veriləcək. Mənim buna qətiyyən şübhəm yoxdur".



**Fazil Mustafa:** "O, həm də bizi müstəqilliyə gətirən yolu açanlardan biridir"



**Fəzail Ağamalı:** "Qorbaçov Azərbaycan xalqının, sözün həqiqi mənasında, bir nömrəli düşməni olaraq qalacaq"

Xatırladaq ki, Mixail Qorbaçov 1931-ci il martın 2-də Stavropol vilayətində kəndli ailəsində anadan olub.

1990-cı il martın 15-də SSRİ-nin prezidenti seçilib. Eyni zamanda 1991-ci ilin dekabrından SSRİ Müdafiə Şurasının sədri, SSRİ Hərbi Qüvvələrinin Ali Baş Komandanı olub. Hakimiyyətin kulminasiyasında olaraq, Qorbaçov kütləvi reformlar və kampaniyalar keçirirdi. Sonralar bu dəyişikliklər ölkəyə bazar iqtisadiyyatının tətbiq olunmasına, Qorbaçovun hakimiyyətdən uzaqlaşdırılmasına və SSRİ-nin süqutuna gətirib çıxartdı. Qorbaçovun fəaliyyətinin qiymətləndirilməsi ziddiyyətlidir. Konservativ siyasətçilər onu iqtisadi dağılmada, SSRİ-nin parçalanmasında və "perestroyka"nın sonrakı nəticələrində günahlandırırlar. Radikal siyasətçilər isə onu qeyri-ardıcıl reform aparmaqda və hər nə cür olursa ölkədə sosializm və inzibati-amirlik sisteminin qoruyub saxlamaq istəyində günahlandırırlar.

❑ **Günel MANAFLI**

# On ayda ev bazarında 26 faiz ucuzlaşma...

## Ekspertlər Bakıda mənzillərin qiymətinin düşməkdə davam edəcəyini bildirirlər

**Ölkənin ev bazarında yenidən qiymət enməsi müşahidə edilir. Qiymət ucuzlaşması həm təkrar, həm də ilkin mənzil bazarında müşahidə olunur. Neftin ucuzlaşması, həmçinin təkrar devalvasiya ehtimalları da qiymətlərə təsir göstərməkdədir. Ekspertlər bildirirlər ki, yaxın üç ay ərzində qiymətlərin artması gözlənilmir. Əksinə, qiymətlərin daha da azalması gözlənilir.**



**"MBA" Konsaltinq və Qiymətləndirmə şirkətinin rəhbəri Nüsrət İbrahimov musavat.com-a açıqlamasında bildirib ki, bu ilin oktyabrında təkrar mənzil bazarında 3,1 faiz ucuzlaşma olub. İlkin mənzil bazarında isə bu rəqəm 1,1 faizdir:** "Ümumən 1,2 faiz qiymətlər düşüb. İlin əvvəli ilə müqayisədə ümumi mənzil bazarında 26 faiz ucuzlaşma var. Qiymət azalmasının əsas səbəbi xarici faktorlardır, regionda baş verən hadisələrdir. Dünya maliyyə bazarlarında baş verən hadisələr qiymətlərin ucuzlaşmasına təsir göstərir. Nəticəsi kimi neftin qiymətinin aşağı düşməsi və bunun Azərbaycana təsiri də mühüm rol oynayır. İkinci səbəb də insanların neqativ gözləntiləridir. İnsanlar hələ ki risk etmirlər əllərində olan vəsaiti mənzil bazarına yönəltsinlər".

**Onun sözlərinə görə, yaxın üç ay ərzində qiymətin artması ehtimalı yoxdur:** "Yanvarın sonuna qədər bahalaşma olmayacaq".

**Növbəti devalvasiya ehtimallarının da mənzil bazarına təsir etməyəcəyini bildirən ekspert, devalvasiya başverdiyi halda belə, mənzil bazarında bahalaşmanı istisna edir:** "Devalvasiya olsa da, qiymət artımına təsir etməz. Fevral devalvasiya elə də təsir göstərmədi. Təsir qısamüddətli oldu. Bu dəfə də devalvasiya olarsa, mənzil bazarına təsiri ehtimal olunmur. Bu gün mənzil bazarına yatırım çox azalıb. Həm banklar, həm fərdlər tərəfindən yatırım azalıb".

Qeyd edək ki, bir müddət əvvəl "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin yaradılması barədə imzalanan fərmanın mənzil bazarında canlanmaya yol açacağı bildirilirdi.

**Ekspert Samir Əliyevin sözlərinə görə, hazırda mənzil bazarında süstlük müşahidə edilir:** "Mənzil bazarında nə alış var, nə də satış. Bu da bir tərəfdən, dünya bazarında neftin ucuzlaşması ilə, digər tərəfdən, Rusiya amili ilə bağlıdır. Çünki Rusiyadan ölkəmizə kifayət qədər maliyyə vəsaiti gəlirdi, həmin vəsait də bazarda aktivliyi kifayət qədər saxlayırdı. Birinci devalvasiya baş verəndə mənzil bazarındakı qiymətlər buna uyğunlaşmağa başladı. Dollar ifadəsində mənzillərin ucuzlaşması baş verdi, manat ifadəsində isə əksinə, bahalaşdı. Ancaq bu, ikin dövrdəki reaksiya idi. Sonrakı dövrdə manatla da mənzillər ucuzlaşmağa başladı. İndi daha çox köhnə evlərin qiymətində azalmalar baş verir. Yeni tikililərin qiymətində dəyişiklik, azalma yoxdur".

**Ekspertin sözlərinə görə, ikinci devalvasiya baş verərsə, bu, mənzil bazarına mənfi təsir göstərəcək:** "Belə ki, əhalinin alıcılıq qabiliyyəti aşağı düşəcək, bu da eyni zamanda evlərin qiymətini aşağı salacaq. Devalvasiya olmasa belə, mənzil bazarında ucuzlaşma davam edəcək. Təbii ki, neft bahalaşmayacağı təqdirdə bu, belə olacaq. "İpoteka Fondu" ilə bağlı istənilən müsbət addım bazara mütləq təsir göstərir. Ancaq bu təsir bir qayda olaraq, qısamüddətli təsir daşıyır. Çünki istənilən informasiyanın arxasında fəaliyyət dayanmalıdır, konkret əmtəə dayanmalıdır. Əgər fəaliyyət yoxdursa, canlanma aradan qalxır. Prezident ipoteka kreditləşməsi ilə bağlı dövlət büdcəsindən əlavə 200 milyon manat vəsait ayrılacağını dedi. Bu qərar həyata keçiriləcəyi halda, bazarda canlanma yaradacaq. Çünki 200 milyon kifayət qədər böyük məbləğdir. Bu, xüsusilə 2-3 otaqlı, qiyməti 100 minə qədər olan evlərin satışına müsbət təsir edəcək",- deyə ekspert milli.az-a bildirib.

Ekspertlər qeyd edirlər ki, ümumən ötən ilin mart ayından Rusiyada rublun məzənnəsinin yüksəlməsi, Ukrayna hadisələri və ətraf regionda, dünya siyasi səhnəsində baş verən hadisələrin mənzil bazarına təsiri qaçılmazdır. Bu, tək bizim ölkədə deyil, regionda bu vəziyyət müşahidə edilir. Biz də bu bazarın tərkib hissəsi kimi qiymət azalmasını hiss edirik. Bildirilir ki, mənzilə tələbat da azalıb ki, burada da psixoloji faktor rol oynayır. Çünki insanların dünya ilə əlaqəsi var, informasiya vasitələrini izləyirlər, məlumatlıdırlar, bu da öz psixoloji təsirini göstərir.

Ekspertlər qeyd edirlər ki, real alıcıların böyük bir hissəsi bazarı tərk ediblər. Səbəb isə əllərindəki pulu qoruyub saxlamaqdır. Hər zaman bazarda canlama yaradan və qiymətləri artıranlar daha çox investorlar idi. Artıq onlar da bazarı tərk ediblər. Məhz onlar da əllərindəki vəsaiti bazara yatırmaqdan ehtiyat edirlər.

Bundan başqa, kredit təşkilatları da daşınmaz əmlak bazarında öz fəaliyyətlərini məhdudlaşdırıblar. Onlar da bu sahəyə pul ayırmağın risk olduğundan ehtiyatlanırlar. Təbii ki, bütün bunlar da mənzillərin qiymətində özünü qabarıq şəkildə büruzə verir.

❑ **Röya RƏFİYEVA**



# Tutulan iri məmurları Kürdəxanıda nə gözləyir?

## Keçmiş siyasi məhbus bütün mənzərəni dəqiqliklə təsvir edir: "Pulun varsa...."

**Kürdəxanıda istintaq təcridxanası tikilən zaman tanınmış müxalifətçilərin klassik bir "qarğışı" vardı: "Özlərinə qismət olsun". Hətta ölkənin son 10 illik tarixində hər inqilab ehtimalında bu söhbət aktuallaşır. Müxalifətçilərin dilindən bu kəlmələri eşidirik: "İnşallah, hakimiyyətə gələcəyik və o türmələri indiki məmurlarla dolduracağıq".**

Doğrudur, müxalifət ondan gözlənildəni edib hakimiyyətə gəlmədi, türmələri də hazırkı iqtidar nümayəndələri ilə doldurmadı. Amma proseslər sürətlə, fərqli istiqamətdə cərəyan etdi və iqtidar öz kadrlarını bir-bir türməyə göndərdi. Təbii ki, ilkin olaraq Kürdəxanıda yerləşən 1 saylı İstintaq Təcridxanasına.

Bu günə qədər yolu ordan keçən müxalifətçilər də az deyil. Onlarla, eləcə də vəkillərlə danışıb maraqlandıq. Kürdəxanı həyatını digər türmələrdəki həyatdan nə ilə fərqləndirmək olar? Şərait, üstünlüklər, bəzi özəlliklər. Bəzən kluarlarda dolaşan söhbətlərdə türmə işçilərinin, nəzarətçilərinin vaxtilə dövlət qulluğunda çalışmış məmurların, varlı iş adamlarının həbsindən xeyli məmnun olduğu üzə çıxır. Çünki onların türmələrə düşməsi işçilər üçün "yağlı qapı" anlamını daşıyır. Hər qulluq üçün neçə min manat pul, hər jestin çox ağır qarşılığı... Bütün bunlar türmə həyatının "olmazsa olmaz"ı sayılır.

Keçmiş məhbuslar birmənalı şəkildə qeyd edirlər ki, əslində istintaq təcridxanası məhkəməyə qədərki dönəm üçün olduqca əhəmiyyətli yer sayılır. Məhbusun ilk həbs stressini dəf etməsi üçün istintaq təcridxanası, ordakı şərait, psixoloji mühit önəm daşıyır. Türməni qəbirlə müqayisə edənlər bu səbəbdən də şəraitlə bağlı bəzi nəfəsliklərə xüsusi önəm verirlər.

**Yolu Kürdəxanıdan keçmiş eks-məhbuslardan olan Nigar Yaqublu dedi ki, Kürdəxanıda yerləşən 1 saylı İstintaq Təcridxanası bütün türmələr arasında ən lüks olanı sayılır:** "Kürdəxanı bütün türmələr arasında "beşulduzlu hotel" adlandırılır. Məsələn, Şüvəlanla müqayisə edəndə bu, özünü daha qabarıq göstərir. Şüvəlanda kameralar balaca, sovetdən qalanlardır. Tualet yarıaçıq vəziyyətdə, antisanitariya şəraiti. Amma Kürdəxanıda bir şey yaxşı idi ki, hamam-tualet bir yerdə idi, üstəlik, üstüörtülü idi. İsti suyu iki gündən bir, 3-4 saat verirdilər. 3-4 nəfərlik kameralar var. Şüvəlanda isə 8-10 nəfər qalır. Kürdəxanıda təmizdir, səliqəlidir. Məhbusun özündən də asılıdır ki, kamerasını necə saxlayır".

**N.Yaqublu Kürdəxanı təcridxanasındakı görüş otaqlarından da danışdı. Dedi ki, orada 3-4 görüş otağı var. Amma bayram günlərində görüş üçün istintaq otaqlarını da ayırırlar:** "Çünki adam çox olur. Görüş otaqları 3 gün qalacaqlar üçün nəzərdə tutulur. Normalda görüş otağında 2 saata qədər otura bilərsən. Amma bayırda çoxlu adam gözləyir. Məhbuslar da növbədə olur. Çox qalanda xəbərdarlıq edilir və deyilir ki, çıxın, növbədə adamlar var. O boyda məhbus sayına görə görüş otaqlarının sayı azdır".

**Müsahibimiz dedi ki, Kürdəxanı təcridxanasında pul hesabına hər şey etmək olar. Pulu olan məhbus yaxşı kamerada saxlanılır. Pulu olmayanın isə kamerasındakı hamamın krantı su buraxır, divarları uçulub-tökülür. N.Yaqublu kameraya telefon keçirən məhbusların olduğunu desə də, bunun üzə çıxarılması halında sonuncuya qarşı cinayət işinin açıldığını vurğuladı:** "Ümumi şəhər telefonu olur. Həftədə 2 dəfə, 15 dəqiqə danışmaq imkanı olur. Mən çıxan vaxt kart sistemi vardı. Pul yükləyir, mobil telefona da zəng etmək olurdu. Mənim vaxtımda 1 zəng limiti vardı. Ona düşməyəndə başqasına zəng edə bilirdin".

**N.Yaqublu hesab edir ki, indi həbs edilən yüksək ranqlı məmurların durumunun birmənalı şəkildə əla olacağı ilə bağlı versiya irəli sürmək olmaz:** "Sıravi oğru ilə Akif Çovdarov bir deyil. Yuxarıya tabe olan adamdır. Amma bütün hallarda siyasi göstərişdən çox şey asılıdır. Əgər türmənin rəisinə həbs olunan məmurlara qarşı sərt olmaq əmri verilsə, təbii ki, deyiləni edəcək".

❑ **Sevinc TELMANQIZI**

# Şəhid atası ittiham etdi, polis cavab verdi

## Əhməd Süleymanov döyüldüyünü, polis isə onun içkili olduğunu deyir





**Biləsuvar rayonunun Cəbrayıl qəsəbəsində yaşayan şəhid atası Süleymanov Əhməd Turab oğlu polis əməkdaşları tərəfindən döyüldüyünü iddia edir. 80 yaşlı Ə.Süleymanov bir aya yaxın müalicə alıb. Şəhid atasının iddiasına görə, onu Cəbrayıl Rayon Polis Şöbəsinin əməkdaşları oktyabrın 6-da Cəbrayıl qəsəbəsində döyüb.**

Ə.Süleymanov "Yeni Müsavat"a açıqlamasında hadisənin başvermə səbəblərini belə danışıb: "Oktyabrın 6-da maşınımla gecə saatlarında yüngül qəza törətmişdim. Axşam olduğundan maşınların hadisə yerində qalmasını və sabah yol polisinin başçılığından sonra araşdırma aparılmasını istəmişdim. Digər maşının sahibi də razılaşdı. Lakin hadisə yerinə gələn Post-patrul xidmətinin əməkdaşları maşının buradan aparılacağını dedi".

Onun iddiasına görə, polislər hadisə yerindən rəisə məlumat veriblər və bundan sonra onu zorla polis şöbəsinə aparıblar.

Bu hadisəyə görə polis şöbəsinə aparılmasının özbaşınalıq olduğunu deyən Ə.Süleymanovun sözlərinə görə, polislər onu zorla PPX maşınına mindiriblər və bu zaman onu döyüblər. Ə.Süleymanov deyib ki, bu zaman onu və şəhid oğlunu təhqir də ediblər.

Qəza zamanı içkili olmadığını deyən Ə.Süleymanov iddia edir ki, həkim yoxlaması zamanı onun içkili olduğunu yazıblar. Onun sözlərinə görə, iş məhkəməyə göndərilib və onun iştirakı olmadan qərar çıxarılıb.

**Şəhid atası deyir ki, məsələnin arxasınca getməsinin yeganə səbəbi oğlunun ruhunun təhqir edilməsidir:** "Cəbrayılda haqq-ədalət yoxdur. Kimin pulu, vəzifədə adamı varsa, söz onundur. Mənim kimi adamları tullantı da hesab etmirlər. Axı burda mənim döyülməyim üçün nə səbəb var idi? Şəhid oğlumun ruhunun söyülməsinin səbəbi nədir? Qəza törətmişdim, razı idim, nə cəriməm var idisə ödəyəcəkdim. Belə özbaşınalıq olarmı? Cəbrayılda 11 qəsəbə var. Bu qəsəbələrdən məni soruşsunlar. 10 nəfər mənim haqqımda pis nəsə desə, günahkar onda mənəm".

Şəhid atasının şikayəti ilə bağlı Cəbrayıl Rayon Polis Şöbəsinin də mövqeyini öyrəndik.

**Şöbənin baş müstəntiqi Azər Məmmədzadə bildirdi ki, Ə.Süleymanov qəza zamanı bədən xəsarətləri alıb. Onu polis əməkdaşları döyməyib:** "Yol nəqliyyat hadisəsi ilə bağlı araşdırma aparmışam. Mənim qərarımla təsdiq olunub ki, Əhməd Süleymanov qəza zamanı xəsarət alıb".

**Baş müstəntiq Ə.Süleymanovun maşını idarə edərkən içkili olduğunu dedi:** "Onun nəqliyyat vasitəsini sərxoş vəziyyətdə idarə etməsinə görə Cəbrayıl Rayon Polis Şöbəsinin DYPB-si tərəfindən İXM-in 152-1.4-cü maddəsi ilə 07.10.2015-ci il tarixdə CYP-719520 nömrəli inzibati protokol tərtib edilib və İXM-in 360-cı maddəsinə əsasən inzibati xəta haqqında tərtib edilmiş protokol baxılması üçün Cəbrayıl Rayon Məhkəməsinə göndərilib və cərimələnib".

❑ **İlkin MURADOV**



# “Nə?”də qalmışıq...

Araz BAYRAMOV

**Bu günlərdə azərbaycanlıların gündəlikdə istifadə etdiyi dilin zəif cəhətlərindən daha birinin fərqinə vardım. Daha doğrusu, bu mənə keçmiş maarifçilərimizdən birinin yazdığını xatırlatdı. Ölkədən xaricdə yaşamağın üstünlüklərindən biri də budur, insan özünə kənardan daha yaxşı baxa bilir.**

Müəllifi yadımda deyil, amma məzmun bundan ibarət idi: bir firəngdən hər hansı bir məsələ haqqında soruşsan o sənə “hə” yaxud “yox” cavabından əlavə nəsə deyir; bizdə isə hər şeyə cavab bu iki sözdən ibarətdir. Ümumiyyətlə, bəzən düşünürəm və inanıram ki, M.F.Axundov, C.Məmmədquluzadə, Ü.Hacıbəyov və başqaları dirilib gəlsəydilər, elə həmin dəqiqə geri göndərilmələrini xahiş edərdilər. Ölkə eyni, problemlər eyni, insanlar aşağı-yuxarı eyni... Təsəvvür eləyin, adam yüz il sonra oyanıb görür ki, bu dövrün yazarları da eyni problemdən yazır. Adamın başına hava gələr.

Nəysə, mən də bu barədə avropalılardan biri ilə yaşadığım dialoqdan sonra düşündüm. Azərbaycan türkcəsində söhbət zamanı həmsöhbətinə “nə?” ya da “necə?” sualı verməк normaldır, normaldan da normaldır. Amma məsələn, polyak dilində bu, söyüşə bərabərdir. Onlar “nə?” (tso?) sualından ancaq əsəbiləşəndə, birinə kinayə - filan edəndə istifadə edirlər. Adətən “eşidirəm”, “başa düşmədim”, “üzr istəyirəm” və s. deyilir. Tək polyaklarda belə deyil, digər Avropa dillərində də bu var, “nə?” demək olmaz.

Düşündüm ki, görəsən, bizdə niyə belədir? Ağlıma tənbəllik və mədəni yoxsulluqdan başqa bir şey gəlmədi. Bəli, biz nəinki oxumağa, işləməyə, çalışmağa, hətta bəzən iki kəlməni yanaşı işlətməyə də tənbəllik eləyirik. Cəmiyyətdə insanların mədəni səviyyəsi o qədər aşağı, bir-birinə inamı o qədər zəifdir ki, məsələn, “xahiş edirəm” demək yalvarmaq, “üzr istəyirəm” demək isə böyük ayıb edib, əfv diləmək kimi anlaşılır. İnsanlar bir-birinə əmr edirmiş kimi müraciət edir.

Azərbaycan dilində “xahişt edirəm” adlı ifadə var, eşitmisiniz? “Xahiş edirəm” yox, “xahişt edirəm”. Mən eşitmişəm, Gəncədə... Əsasən Daşkəsən, Gədəbəy və o ətrafların işlətdiyi ifadədir. Yanlış anlaşılmasın, mən gördüyümü deyirəm. Bu sözün ilkin variantı “Xahiş də edirəm” şəklindədir. Zaman-zaman deformasiyaya uğrayıb və “xahişt edirəm” şəklinə düşüb. Çünki söhbətin hər iki tərəfi bu ifadəni yalvarmaq kimi anlayır. Bu vəziyyətdə, “xahiş də edirəm” demək, türkiyəlilər demiş, istəyənin verdiyi bir tavizdir, ən axırıncı yoldur. “Xahiş də edirəm, daha neyləyim?” şəklində. “Filankəs gəldi, xahiş də elədi, dedi nə olar, filan şeyi filan elə”...

Bu vəziyyət təkcə həmin bölgədə bu cür deyil. Elə paytaxtın özündə də nabədə biriylə mədəni tonda danışasan. O zaman olacaqsan zəif, aldadılma potensialı yüksək olan biri. Bizimkilərə elə gəlir ki, əgər bir nəfər mədənidirsə, nə bilim səliqəli geyinibsə, eynək taxırsa, ümumiyyətlə, mədəni, təhsilli insan görünüşü bağışlayırsa, onu asanlıqla aldatmaq, əlindəkini almaq olar. Hətta nəinki olar, bunu etmək vacibdir. Məsələn, Bakıda bir taksi sürücüsü ilə bu tonda danışmaq olmaz. “Salam, üzr istəyirəm, filan yerə neçəyə aparարsınız?” Olmaz, qəti olmaz. Əgər o yol 5 manatdırsa, 10 manat deyəcək. Məsələn deməlisən ki, “qaqa (dayı, əmi) filan yerə neçəyə aparарsan?” O da anlayır ki, sən elə-belə adam deyilsən, şəraitlə tanışsan, onları tanıyırsan.

Ən sadə məsələləri, ən bəsit sualları belə çözə bilməməyimiz böyük dərddir. Hələ də “nə?”də qalmışıq.

# Azərbaycanlı “qanuni oğru”nu kim öldürtmək istəyib-yeni savaş başlayır

## Sankt-Peterburqda “Albert Rıjıy” ləqəbli məşhur azərbaycanlı “qanuni oğru” Əli Heydərova qarşı sui-qəsdlə bağlı səs-küylü cinayət işinin məhkəməsi başa çatıb; həbs edilənlər həm də “Sabirabadlı Hikmət”in qətlində şübhəli bilinirdilər, amma...

**Sankt-Peterburqda “Albert Rıjıy” ləqəbli məşhur azərbaycanlı “qanuni oğru” Əli Heydərova qarşı sui-qəsdlə bağlı səs-küylü cinayət işinin məhkəməsi başa çatıb. Rəsmi ittihama görə, ötən ilin mart ayının 18-də Sankt-Peterburqda məskunlaşmış azərbaycanlı “qanuni oğru” “Albert Rıjıy”ı öldürmək istəyiblər. İki killer “Albert Rıjıy”ı öldürmək məqsədilə onun yaşadığı evin ətrafında pusqu qurub.**



Nadir Səlifov (“Lotu Quli”)



“Albert Rıjıy” ləqəbli məşhur azərbaycanlı “qanuni oğru” Əli Heydərov

Moskva nömrəli “Audi A8"də öz qurbanını güdən killerləri yaxınlıqda daha bir avtomobil gözləyib. ”Kalaşnikov" avtomatı və iki tapança ilə silahlanan muzdlular məqsədlərinə çata bilməyiblər. Polis azərbaycanlı avtoriteti qətlə yetirmək istəyənləri həbs edib. Polis bölməsində məlum ki, həbs edilənlər Naberejnıy Çelnı vilayətində qeydiyyatda olan Aleksey Şparuta və Ruslan Koryaqindir.

Rusiya mətbuatı o zaman yazırdı ki, həbs edilənlər deyiblər ki, azərbaycanlı “vor zakon”un qətlinin sifarişini Peterburqda yaşayan bir nəfərdən alıblar. Bir neçə gün sonra sifarişçi - Gürcüstanda anadan olmuş 32 yaşlı İlham Hacıyev də həbs edilib. “Hamlet” ləqəbi ilə tanınan avtoritet əvvəl təslim olmaq istəməyib və yaşadığı mənzilin balkonundan qaçmağa cəhd edib. İkinci mərtəbədən düşmək istəyərkən polislər ona pnevmatik silahdan atəş açaraq yaralayıblar. Yüngül xəsarət aldığından səhəri gün onu istintaq təcridxanasına aparıblar. “Hamlet” Nadir Səlifovun (“Lotu Quili”) qohumudur.

Sifarişdə “Lotu Quli”nin qohumunun adının hallanması kriminal aləmin diqqətini dərhal bu mövzuya yönəltdi. Sui-qəsd cəhdindən iki ay sonra, ötən ilin mayında “Albert Rıjıy” Piterdə “sxodka” keçirdi və bu qətlinin sifarişçi kimi “Quli”nin adının hallandırılması geniş müzakirə olundu. “Sxodka”da Aliksey Qudına (“Lexa İrkutski”) və Besik Kvinixidze (“Beso Rustavski”) “qanuni oğru” titulundan məhrum edildilər. Məlumatda o da deyilirdi ki, “Lexa İrkutski” “Albert Rıjıy”ın öldürmək istəmələri ilə bağlı xəbərlərə və bu işdə həmyerlisi “Quli”nin adının hallanmasına etiraz edirmiş. Qudına iddia edirmiş ki, sui-qəsd məsələsini “Albert Rıjıy” özü polisdəki adamlarının dəstəyi ilə quraşdırıb. “Lexa”nın isə “Lotu Quli”nin qruplaşmasına daxil olduğu bildirilir. “Albert Rıjıy”ın 2014-cü ilin iyun ayında Türkiyənin Ədirnə şəhərindəki restoranların birində “Lexa İrkutski”nin 15-ə yaxın adamı ilə də atışmışdı.

Virtualaz.org saytı xəbər verir ki, iş üzrə başa çatan məhkəmədə hakim sui-qəsd cəhdinin “killerlər” tərəfindən təşkil olunduğuna və hazırlandığına dair ittihamın əsassız olduğu qənaətinə gəlib. Nəticədə sui-qəsdin təşkilatçısı kimi ittiham olunan İlham Hacıyevə tam bəraət verilib. İstintaqın “Albert Rıjıy”i öldürmək üçün muzdla tutulmuş qatillər hesab etdiyi iki Rusiya vətəndaşı - Naberejnıy Çelnı şəhərinin sakinləri Aleksey Şparuta və Ruslan Koryagin isə hələ bu ilin iyul ayında başqa maddə ilə *(qanunsuz silah gəzdirmə maddəsi)* üzrə 2 il həbsə məhkum edilmişdi. İndi isə məhkəmə onların üzərindən “vor zakon”u öldürmək cəhdi barədə ittihamı götürüb. Maraqlıdır ki, ötən bu həbslərdən yazan primecrime.ru saytının xəbərində deyilirdi ki, 39 yaşlı Aliksey Şparuta və 45 yaşlı Ruslan Koryaqin Rusiyanın ən adlı-sanlı “qanuni oğru”larından olan Hikmət Muxtarovun qətlinin əsas şübhəlilərindən hesab edilirlər. Xatırladaq ki, “Sabirabadlı Hikmət” kimi tanınan “qanuni oğru” 2006-cı ilin aprelində Moskvada “Kalaşnikov” avtomatı ilə qətlə yetirilib və nə şifarişçi, nə icraçılar bu günədək tapılmayıblar. Bu mənada Rusiya saytının xəbəri əsl sensasiya sayıla bilərdi.Amma belə görünür ki, məhkəmədə bu qətl haqında heç bir qərar verilməyib. Qeyd edək ki, “Albert Rıjıy” soyğunçuluq ittihamı ilə 2014-cü ilin iyul ayında həbs olunub.



Hikmət Muxtarov (“Sabirabadlı Hikmət”)

“Albert Rıjıy” kimi tanınan Əli Müseyib oğlu Heydərov 1981-ci ilin fevral ayının 2-də Gəncədə anadan olub. “Albert Rıjıy” ləqəbi ilə məşhurlaşan Ə.Heydərov “qanuni oğru” adını 2012-ci ilin payızında Aslan Usoyanın dəstəyi ilə alıb. “Ded Xasan” klanında yer alan “Albert Rıjıy” Rusiyanın Şimal-Qərb regionu üzrə “smotryayuşi” təyin edilib. “Ded Xasan”ın qətlindən sonra da (“Ded Xasan” 2013-cü ilin yanvar ayının 16-da öldürülüb) klana sadiq qalıb. O, Rusiya vətəndaşı ilə evlənib və iki uşağı Arxengelskdə qeydiyyatdadır. Bu səbəbdən də Ə.Hüseynov həm də “Albert Arxangelsk” kimi də tanınır. Xarakter etibarilə sərt olan azərbaycanlı “qanuni oğru” bahalı maşınlar həvəskarıdır və tez-tez avtomobillərini dəyişir. O, digər azərbaycanlı “qanuni oğru” “Rövşən Lənkəranski” ilə də düşmən münasibətindədir.

❑ **“Yeni Müsavat”**

**Ermənistan parlamentində xarici işlər naziri Edvard Nalbəndyanın iştirakı ilə gizli Qarabağ müzakirələri aparılır. Bu barədə erməni mətbuatı məlumat yayıb. İddialara görə, müzakirələrdə əsas diqqət Rusiya xarici işlər naziri Sergey Lavrovun İrəvana səfəri zamanı irəli sürdüyü təkliflərə yönəldiləcək.**



# Rəsmi Bakıdan Qarabağa dair qəti mövqe

Müdafiə nazirimizin düşmənə mesajı; İrəvandakı Qarabağ müzakirələrinə pessimist baxış; **hərbi ekspert:** "Ermənistan ictimai fikrində işğal edilmiş hansısa rayonumuzun geri qaytarılması heç də razılıqla qarşılanmır"

**Hikmət Hacıyev:** "Azərbaycan Respublikasının ərazi bütövlüyü hər hansı sövdələşmə obyekti ola bilməz"



Hikmət Hacıyev



Fazil Mustafa



Üzeyir Cəfərov

**Erməni mətbuatı Sergey Lavrovun noyabrın əvvəlində Ermənistana etdiyi səfərinin məhz Dağlıq Qarabağ ətrafındakı rayonların geri qaytarılması ilə bağlı olduğunu yazırdı. İrəvanda dərc olunan "Haykakan jamanak" qəzeti noyabrın 10-da yazmışdı:** "Dağlıq Qarabağ münaqişəsi ətrafında yeni xəlvəti proses gedir. Bunun əsas təşəbbüskarı Rusiyadır. Söhbət Qarabağda bir neçə rayonun Azərbaycana qaytarılmasından gedir. Hökumətə yaxın mənbələrdən alınan məlumata görə, Rusiya Ermənistanı bir neçə rayonu təhvil verməyə razı salmağa çalışır. Bununla da Azərbaycanın Avrasiya İttifaqına girməyə razılığını almaq istəyir. Həmin mənbələr iddia edir ki, Sergey Lavrovun İrəvana dünənki səfərinin əsas məqsədi məhz bu olub".

Qeyd edək ki, bir müddət öncə bənzər informasiyalar yayılsa da, sonradan rəsmilər səviyyəsində təkzib verildi. Bildirildi ki, Lavrovun səfəri zamanı rayonların Azərbaycana qaytarılması mövzusu müzakirə predmeti olmayıb. Elə İrəvanın aqressiv mövqeyi, üstəlik, Dağlıq Qarabağın ətraf ərazilərində də tikinti işlərinin aparılması, məskunlaşma siyasəti və s. də bunu isbat edir ki, düşmən ölkə Azərbaycanın işğal edilmiş hansısa rayonunu geri qaytarmaq niyyətində deyil.

**Deputat Fazil Mustafa ANS-ə bu barədə deyib ki, Rusiyanın maraqlarına uyğun gəlməyən məqamda Ermənistan ictimai rəyinin heç bir qiyməti olmayacaq:** "Rusiya Ermənistandan rayonları qaytarmağı tələb edən zaman ictimai rəyə baxan kimdir? Deputatlar da, Ermənistan rəhbərliyi də sakitcə Rusiyanın göstərişinə əməl edəcəklər. İctimai rəy nə edə bilər ki? Sakitcə razılaşacaqlar. Amma hələ ki Rusiyanın belə bir tələbi görünmür. Yəni o müzakirələrin Qarabağla bağlı olduğunu inandırıcı deyil".

Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün ilin son ayında keçiriləcəyi barədə xəbərlərin yayıldığı dövrdə Azərbaycanın atdığı bir sıra addımlar diqqət çəkir. Belə ki, son həftədə Azərbaycana keçmiş bir erməni əsir və bir mülki vətəndaş Ermənistana şərtsiz təhvil verilib. Bu addım isə Azərbaycanın konstruktiv mövqeyinin daha bir təsdiqidir. Belə ki, erməni tərəf Şuşada girov saxladığı Kəlbəcər sakinləri Dilqəm Əsgərov və Şahbaz Quliyevi hələ ki azad etmək fikrində deyil. Azərbaycanın mövqeyi isə təqdir olunur.

"Biz Azərbaycanın təmas xəttini keçən erməni əsgəri geri qaytarması ilə bağlı atdığı humanitar jesti alqışlayırıq"-ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik özünün twitter səhifəsində belə yazıb (APA) Xatırladaq ki, son olaraq 22 mart 2015-ci il tarixdə təmas xəttini keçərək Azərbaycan hərbçilərinə könüllü təslim olan erməni əsgər Andranik Araratoviç Qriqoryan noyabrın 18-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) himayəsi altında geri qaytarılıb.

**Paralel olaraq Qarabağ məsələsinin həll olunacağı ilə bağlı nikbin bəyanatlar Avropadan gəlməkdədir. "Avropa Birliyi Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətini dəstəkləyir". Bunu isə avropalı diplomat Pyotr Svitalski deyib. Onun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsi tezliklə həll olunacaq:** "Buna əminəm və bu, hər iki ölkə üçün yeni iqtisadi imkanlar açacaq".

**Fransa da Azərbaycanı Dağlıq Qarabağ məsələsində dəstəkləyir. Fransanın Azərbaycandakı səfiri Aureliya Buşez bu barədə deyib. Paris meri Ann İdalqonun himayəsi altında "Hayastan" ümumerməni fondunun Fransa ofisi tərəfindən keçiriləcək 16-cı Avropa telemarafonuna münasibət bildirən səfir deyib ki, Dağlıq Qarabağ məsələsində Fransanın mövqeyi son dərəcə aydındır:** "Fransa Azərbaycanı dəstəkləyir və qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır". Məlumata görə, telemarafondan əldə olunacaq vəsait separatçı Dağlıq Qarabağ regionunda icma mərkəzinin tikintisinə ayrılacaq. A.Buşez qeyd edib ki, Paris merinin belə bir layihə həyata keçirməsi Fransanın mövqeyini əks etdirmir: "Burada ikili standartlardan söhbət gedə bilməz".

**Lakin eyni zamanda Azərbaycan ordusunun rəhbərliyi sərt bəyanat verib ki, bu da savaş anonsu sayıla bilər.** "Qısa dövr ərzində ordumuz düşmənə zərbələr vuraraq əsas istiqamətlərdə onu sarsıdıb. Haqq işimizi davam etdirəcəyik". **Bunu müdafiə naziri, general-polkovnik Zakir Həsənov deyib.** Onun sözlərinə görə, ərazilərimizin işğaldan azad edilməsində digər qoşun növləri ilə bərabər aparıcı qüvvə heç şübhəsiz ki, həm də Hərbi Hava Qüvvələridir. "Bu vəzifənin yerinə yetirilməsi bizim üzərimizə düşür. Əminəm ki, Azərbaycan əsgəri silahı gücünə xalqımızın və prezidentin etimadını doğruldacaq".

**Hərbi ekspert Üzeyir Cəfərov "Yeni Müsavat"a situasiyanı şərh edərkən bildirdi ki, Qarabağ ətrafında son günlər çox maraqlı və maraqlı olduğu qədər də ziddiyyətli proseslər müşahidə edilməkdədir:** "Bir tərəfdən Ermənistan parlamentində xarici işlər naziri Edvard Nalbəndyanın iştirakı ilə gizli Qarabağ müzakirələri aparılır. Özü də erməni mətbuatı gen-boluna yazır ki, müzakirələrdə əsas diqqət Rusiya xarici işlər naziri Sergey Lavrovun İrəvana son səfəri zamanı irəli sürdüyü təkliflər ətrafında gedir. Ola bilsin ki, Rusiya bu dəfə də şahmat gedişi etmək fikrinə düşüb. Yəni guya onlar Qarabağ məsələsinin hazırkı status kvodan tərpənişini "çox arzulayırlar". Amma baxın, Ermənistan rəsmi dairələri, parlament, ictimaiyyət hələ məqamın yetişmədiyini deyir. Ola bilsin ki, variantlardan biri budur. Digər variant da "tutdu qatıq, tutmadı ayran" məsələsində olduğu kimi ola bilər".

**Ü.Cəfərov mühüm bir detala diqqət çəkdi:** "Bildiyim qədər Sergey Lavrov noyabrın əvvəlində Ermənistana etdiyi səfər zamanı Dağlıq Qarabağ ətrafındakı rayonlarla bağlı açıq şəkildə heç bir fikir səsləndirməmişdi. Əksinə, Ermənistana ürək-dirək vermişdi ki, narahat olmayın, bundan sonra da biz sizin arxanızdayıq. İndi birdən-birə nə baş verdi ki, guya rayonların qaytarılması ilə bağlı gah ordan, gah da burdan fikirlər səslənir. Hətta bizim Prezident Administrasiyasının xarici əlaqələr üzrə cavabdeh şəxsi Novruz Məmmədov da bugünlərdə mətbuata açıqlamasında əvvəl 5, sonra isə 2 rayon söhbətini dilə gətirmişdi. Rusiya mətbuatı da son vaxtlar intensiv şəkildə Putin hakimiyyətinin Ermənistanı bir neçə rayonu təhvil verməyə razı salmağa çalışmasından yazır".

**Hərbi ekspertə görə, bu, sadəcə, bir imitasiyadır, ən başlıca məqsəd isə Azərbaycanı Avrasiya İttifaqına girməyə şirnikləndirməkdir:** "Bir də Ermənistanda məlum parlamentin güllələnən edilməsi hadisəsi unudulmayıb. Elə onda da Qarabağla bağlı hansısa ciddi dəyişiklik edilməyə hazırlıq işləri gedirdi ki, aləm bir-birinə qarışdı. Bu gün Ermənistan ictimai fikrində Azərbaycanın işğal edilmiş hansısa bir rayonunun geri qaytarılması heç də razılıqla qarşılanmır. Sərt yanaşma mövcuddur. Bütün bunları yaxşı və pis tərəfdən təhlil edəndə ortalığa heç də bizi sevindirə biləcək mənzərə çıxmır".

**Ü.Cəfərov hesab edir ki, Avropa Birliyi nümayəndəsinin də Qarabağ məsələsinin tezliklə həll olunacaqı haqqında söylədiyi fikirlər də o qədər ciddi önəm daşımır:** "İndiyə kimi onlar hansısa müsbət dəyişikliyə nail olmaq üçün təcavüzkara təsir və ya təzyiq göstəriblərmi? Əlbəttə yox. Bunların işi ya narahat olmaqdır, ya bərk narahat olmaqdır. Ən yaxşı halda da hansısa addımı, hərəkəti alqışlamaq və dəstəkləməkdir. Başqa nə isə xatırlamaq mümkün deyil. 20 ildən çox eyni mənzərə, eyni sözlər... İşğalçı özünü rahat hiss edir, danışıqların sayı-hesabı yox. İndi də ATƏT-in Minsk Qrupu 2015-ci il başa çatır deyə, çalışırlar hər iki prezidentləri bir masa arxasında otursunlar. Amma mən bu görüşdən də çox şey gözləmirəm. Ən azından Sərkisyan kimi cinayətkar ya hakimiyyətdən getməlidir, ya da o sadəcə görüş xatirinə daha bir görüşə qatılmaqla özünün hakimiyyət ömrünü bir az da uzatmağa çalışacaq".

**XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a açıqlamasında KİV-lərdə gedən bəzi yazıları şərh etmək istəmədiyini bildirdi:** "Xüsusən də Ermənistan mediasında əksini tapan məlumatları şərh etmirik". O, eyni zamanda gələcək haqqında hər hansı şərh vermək istəmədiyini bildirdi və qeyd etdi ki, bu, düzgün olmaz: "Amma cari vəziyyətdə məsələ ondan ibarətdir ki, Ermənistanın Azərbaycana qarşı işğal və təcavüzü davam edir və bunun əsasını təşkil edən ststus-kvo saxlanmaqdadır. Azərbaycan Respublikasının ərazi bütövlüyü hər hansı sövdələşmə obyekti ola bilməz!"

**Danışıqların bərpası halında gözləntilərinə gəldikdə, XİN sözçüsü aşağıdakıları vurğuladı:** "Azərbaycan danışıqlar prosesində o məntiqlə iştirak edir ki, onun yekun nəticəsi Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyini təmin etmiş olsun".

**XİN rəsmisinin sözlərinə görə, prezidentlərin görüşü ilə bağlı hazırda hər hansı bir fikir söyləmək erkən xarakter daşıyır:** "Minsk Qrupunun həmsədrləri oktyabr ayında regionda olan zaman belə bir təklif irəli sürmüşdülər. Amma Azərbaycanın mövqeyi yenə dəyişməz qalır ki, görüşlər görüş naminə və ya danışıqlarda zahiri dinamika yaratmaq məqsədilə keçirilməməlidir. Azərbaycan substantiv və konstruktiv əsasda münaqişənin həllinə xidmət edəcək danışıqlara həmişə hazırdır".

H.Haciyev növbəti görüşə ev sahibliyi edəcək ölkə barədə də məlumatsızlığını ifadə etdi: "Hələ ki bunun təfərrüatları barədə məlumat yoxdur".

# Bu bağçada uşaqlarla yanaşı, siçovullar və ilanlar gəzişir

## Əməkdaşımız Pirşağıda 1957-ci ildən təmir edilməyən bağçanın acınacaqlı durumundan yazır

**Sabunçu rayonu, Pirşağı qəsəbəsi, 2 nömrəli sovxozun ərazisində yerləşən uşaq bağçası yararsız durumdadır. Bakı Şəhər İcra Hakimiyyətinin nəzdində olan 283 saylı körpələr və uşaq evi 1957-ci ildə inşa edilib və həmin gündən bu zamana qədər bir dəfə də olsun təmir edilməyib.**










Bağça Südçülük və Tərəvəzçilik sovxozunun ərazisindədir. Nə qədər qəribə olsa da, buranın adı hələ də bu formada gedir. 7 mindən çox sakini olan qəsəbənin problemləri sadalamaqla bitməz. Lakin sakinləri ən çox narahat edən adıçəkilən bağçadır. Çünki bağçanın binası bərbad vəziyyətdədir.

Şikayət əsasında bağçanın durumunu yaxından görmək üçün oraya yollandıq. Bizi ilk olaraq qapıdakı zibillik "qarşıladı", daha sonra isə bağçanın həyətindəki toyuqlar...

Bağçanı ilk dəfə görəndə, səhv gəldiyimizi düşündük. Çünki burada hər hansı canlı varlığın olması hiss edilmirdi. Çünki həm bina bərbad vəziyyətdə idi, həm də ətrafda heç kəs görünmürdü. Bir müddət sonra isə hər şey məlum oldu. Sən demə, bizim gələcəyimizi bir yolla öyrənən bağça müdirəsi, hər kəsə bayıra çıxmamağı tapşırıbmış. Bu yolla da binanın eyiblərini gizlədəcəyini düşünüb. Lakin bu istəyi tam da baş tutmadı.

Bağça müdirəsi pəncərədən bizi görər-görməz qapıları üzümüzə qapatdı. Bir müddət sonra isə bayıra çıxaraq, bizimlə görüşdü. Lakin bina daxilində çəkiliş aparmağımıza icazə vermədi. Səbəb olaraq isə dedi ki, "Mən buna icazə verə bilmərəm. Kameranızı və telefonunuzu bayırda qoyun, içəri keçin". Buna da razılaşdıq.

**Amma bağça müdirəsi Xırdaxanım xanım fikrini dəyişdi və ümumiyyətlə, çəkilişə icazə vermədi:** "Mən özbaşına deyiləm. Sizə içəridə çəkiliş aparmağa icazə verə bilmərəm. Bağçanın təmirə ehtiyacı var, amma yararsız halda deyil. Söz veriblər ki, 2016-cı ildə bağça əsaslı təmir ediləcək. Pirşağıda 2 bağça var. Onun birini bağlayıblar, digəri isə budur. Bura da bağlansa, işçilər nə edəcək?"

*Deyəsən, bağça müdirəsini uşaqlar yox, özü və işçiləri maraqlandırır:*

***- Bəs bu vəziyyətdə olan bina balaca uşaqların həyatı üçün təhlükə daşımırmı?***

- Xeyr. Heç bir təhlükə yoxdur. Çünki buraya FHN əməkdaşları gəliblər və deyiblər ki, bina qəzalı vəziyyətdə deyil. Sadəcə, təmirə ehtiyac var.

***- FHN əməkdaşları yoxlayıblarsa, deməli, sizə rəy verməli idilər.***

- Yox, mənə sənəd verməyiblər. Deyiblər əsaslı təmirə ehtiyac var.

***

Xırdaxanım müəllimə binanın yararsız olmadığını iddia etsə də, hər şey göz qabağında idi. Üstəlik, qapıları qapadıb, bizi içəri buraxmaması, vəziyyətin nə qədər ağır olduğunu izah edir.

**Bir müddət sonra ətrafda yaşayan sakinlər və valideynlər əraziyə gəldilər. Onlar bağçanın həyətinə daxil olmaq istəsələr də, bu, mümkün olmadı. Çünki bağça müdirəsi xadimələrdən ikisinə tapşırıq verərək, qapıları bağlatdırdı:** "Tez qapıları bağlayın, tez olun, cəld olun".

**Bundan sonra söhbət bağlı qapılar arxasında davam etdi. Valideynlər bağça müdirəsinə iradlarını bildirməyə başladılar:** "Belə yerdə uşaq qalar? Binada ilanlar, siçovullar gəzişir. Divarlar sökülüb dağılır. 1957-ci ildən binaya əl vurulmayıb, təmir edilməyib. Bura yararsız və təhlükəli olduğu üçün camaat uşağını başqa rayon ərazisinə, başqa qəsəbələrin bağçalarına aparır.

Uşaqların hər birindən aylıq 5 manat istəyirlər. Bu bərbad bağçaya 80 manat almadan uşaq götürmürlər. Uşaqlara supdan başqa heç bir yemək verilmir. Bağça müdirəsi buraya gələn ərzağı oğlunun maşını ilə daşıyır evinə. Uşaqların yatdığı yerə baxsanız, görərsiniz ki, ora hansı vəziyyətdədir. Pəncərəsi şirniyyat qutusu ilə qapadılıb. Binanın ikinci mərtəbəsiz, ümumiyyətlə, bərbaddır.

Bağçanın iki qapısı var. Birinin yanında zibillik, digərinin yanında mal peyini iy verir. Binanın divarları nəm, hər yerdə siçovul... Buraya sağlam gələn uşaq xəstəlik tapar. Kiçik bir zəlzələ olsa, bina yerin altında qalacaq. Uşaqların başına bir iş gəlsə, kim cavab verəcək?"

**Sakinlər deyir ki, bağça mütləq təmir edilməlidir. Hətta təmirə qədər bağlanmasına da razıdırlar. Təki təmir edilsin:** "Bəzi ailələr taksi tutub uşaqlarını başqa bağçalara göndərirlər. Amma hamının bu xərci qarşılamağa imkanı yoxdur. Məcbur qalıb, buraya gətirirlər. Amma bu bağça yararsızdır. Hər an uça bilər. Təmir etsinlər, ya da söküb, təzədən tiksinlər. Biz uşaqlarımızı bir müddət evdə saxlamağa razıyıq. Təki bura təmir edilsin. Bağça müdirəsi qapıları üzümüzə qapadıb. Guya bu yolla içərinin vəziyyətini gizlətməyə çalışır. Amma mümkün deyil. Əgər qorxacağı bir şey yoxdursa, niyə qapıları qapadır?"

Bir müddət sonra əraziyə polis əməkdaşları da gəldi. Onlar sakinləri sakitləşdirib, müdirədən qapını açmağı xahiş etdilər. Lakin müdirə öz fikrində israrlı idi. Qapıları yenə açmadı. Və sona qədər də buna əməl etdi.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Başsağlığı

**Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətinin kollektivi AXCP Ali Məclisinin sədri Həsən Kərimovun vəfatından kədərləndiyini bildirir, ailəsinə dərin hüznlə başsağlığı verir.**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34


## Gəncədən sərnişin avtobusu ilə Bakıya 8 kilo nəşə gətirdi

**Gəncədən 8 kiloqram narkotik maddəni sərnişin avtobusu ilə Bakıya gətirən Elman Mirzəyev həbs olunub. Binəqədi Rayon Polis İdarəsi və 4-cü polis bölməsi əməkdaşlarının həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan Gəncə şəhər sakini Elman Mirzəyevin əlindəki torbaya baxış zamanı 8 kiloqram 70 qram qurudulmuş marixuana aşkar edilərək götürülüb.**

E. Mirzəyev ifadəsi zamanı narkotik maddəni satmaq niyyəti ilə Bakı şəhərinə gətirdiyini bildirib: "Satmaq məqsədilə gətirmişdim, polis əməkdaşları tutdu".

Qeyd olunan faktla bağlı Binəqədi Rayon Polis İdarəsində başlanan araşdırmalar davam etdirilir.

## Bütün ailə üzvlərini itirən 26 yaşlı gənc yoxa çıxıb

**Salyan şəhər sakini itkin düşüb. 26 yaşlı Elçin Mirqələm oğlu Qasımov noyabrın 11-də evdən çıxıb və bir daha geri qayıtmayıb. Bu barədə virtualaz.org saytının Şirvan bürosuna E.Qasımovun yaxınları məlumat verib. Onların sözlərinə görə, Elçinin hər iki valideyni bir neçə il əvvəl xəstəlikdən, yeganə qardaşı isə avtomobil qəzasında dünyalarını dəyişdiyindən o, tənha yaşayırmış.**

Bir neçə gün əvvəl ondan bir xəbər olmadığını görən yaxınları Elçinin evinə gedərək bir xəbər tutmaq istəyiblər. Həyət qapısı bağlı olduğundan qohumları hasardan aşaraq evə keçiblər.

Bu zaman mənzilin işıqları yansa, elektrik sobası isə cərəyana qoşulmuş halda olsa da Elçin evdə olmayıb. Onun mobil telefonuna da zəng çatmır.

Elçin Qasımovun yaxınları onun itkin düşməsi ilə bağlı dünən Salyan Rayon Polis Şöbəsinə müraciət ediblər. Polis araşdırmalara başlayıb.


## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT
N 259 (6287) 21 noyabr 2015

# Hava, su, çörək və internet...

## Bizi sonuncu ilə "vura" bilərlər; Osman Gündüz: "Necə olur ki, "Delta Telekom" qəza olduğu deyilən saatlarda Gürcüstana internet sata bilib, ancaq biz özümüz internetsiz qalmışıq"

**Noyabrın 16-da günün ikinci yarısında Azərbaycanın əksər aparıcı internet provayderlərinin abunəçilərə verdiyi internet kəsildi və internetdən istifadə edən əhalinin 90 faizi internetsiz qaldı. Bu, həyatının əksər hissəsini internet üzərindən qurmuş insanlar üçün fəlakət kimi qəbul edildi. İnformasiya əldə etmək, plastik kartlardan istifadə, bank hesablarında əməliyyatlar, ən əsası isə kütləvi informasiya vasitələrinin işi mümkünsüz hala gəldi. Belə demək mümkündürsə, ölkədə 7 saat müddətində həyat dayandı. Həmin gün gecə saat 11:30 radələrində internet bərpa olundu. Rəsmi məlumatda "Delta Telekom" şirkətində yanğın olduğu, yangının Fövqəladə Hallar Nazirliyi tərəfindən söndürüldüyü bildirilirdi.**

Bütün ölkə ərazisində internetin kəsilməsi bəzi iddiaların ortaya çıxmasına da səbəb oldu. Siyasi analitik Mirzə Xəzər facebook səhifəsində baş verən hadisəni belə izah edib ki, bir neçə gün Azərbaycan ərazisində internet zəif və çox zəif olacaq. Buna səbəb son proseslərdir; belə ki, problemin kökündə ölkə rəhbərliyinin də telefon danışıqlarının dinlənilməsi üzə çıxması və bundan sonra rabitə strukturunda avadanlığın dəyişdirilməsi dayanır. İddia edilir ki, yeni avadanlıq vasitəsilə ölkə rəhbərliyinin telefon danışıqlarını və internet yazışmalarını izləmək mümkün olmayacaq...

Səbəbinin nə olmasından asılı olmayaraq baş verən hadisə Azərbaycanda informasiya təhlükəsizliyinin nə dərəcədə ciddi sual altında olmasını ortaya çıxardı.

Görəsən, ölkədə "Delta Telekom" şirkətindən başqa alternativ internet mənbəyi yoxdurmu? Əgər varsa, internetin olmadığı 7 saat ərzində niyə alternativ sistemlə ölkədə internet təmin edilmədi? Müharibə şəraitində olan ölkənin hər an informasiya blokadası ilə təhdid edilməsi milli təhlükəsizliyimizi kölgə altına salmırmı? İnternetin kəsilməsinin səbəbi həqiqətən "MTN işi" ilə bağlı ola bilərmi?

**"Yeni Müsavat"ın suallarını cavablandıran Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz də bildirdi ki, noyabrın 16-da bütün ölkə ərazisində internet təchizatı sahəsində yaranan problem dövlətin informasiya təhlükəsizliyi üçün ciddi təhdiddir:** "Bu xoşagəlməz hadisə bizim üçün ciddi bir dərs idi. Buna, sadəcə, internet bağlantısının kəsilməsi kimi yanaşmaq olmaz. Bir saniyə internetin kəsilməsi belə, ciddi bir hadisədir. Əslində bu hal dünyada qeyri-adi bir durum hesab olunur. Bir neçə saat ərzində ölkənin internetsiz qalması qlobal dünyadan ayrılması deməkdir. Baş verən hadisə ölkənin informasiya məkanına ciddi təhlükə kimi dəyərləndirilir. Bu başqa müstəvidə müzakirə olunmalıdır. Söhbət texnologiyadan gedirsə, bu cür hadisələr qaçılmazdır. Sabah da hər hansı partlayış ola bilər, kabel yana bilər... Ancaq sistem hər zaman dayanıqlı olmalıdır. Dayanıqlı o deməkdir ki, istənilən halda alternativ variantlar olmalıdır. İnternet, yəni informasiya təhlükəsizliyi bizim milli təhlükəsizliyimizin tərkib hissəsidir. Ölkədə dayanıqlı informasiya sistemi olmalıdır, onlayn əlaqə təmin olunmalıdır, beynəlxalq aləmlə informasiya mübadiləsi təmin olunmalıdır. İndi baş verən hadisə onu göstərdi ki, bizdə internetin dayanıqlığı ilə bağlı problem var".


Osman Gündüz

**Osman Gündüz ölkəni internetlə təmin edən ən böyük internet provayderi "Delta Telekom" baş verənlərlə bağlı abonentlərinə açıqlama verməlidir:** "Düzdür, son illər Azərbaycanda informasiya infrastrukturunun qurulması istiqamətində xeyli iş görülüb, demək olmaz ki, vəziyyət çox bərbaddır. Biz ən azı 5 yerdən dünyaya bağlanırıq və internet kəsilən zaman həmin xətlərdə hər hansı bir problem olmayıb. Yəni internet bağlantısı yerindədir, ancaq biz informasiya münasibətlərini qura bilmirik.

Digər bir məsələ də odur ki, "Delta Telekom" həmin saatlarda bizim interneti Gürcüstana sata bilib, yəni orada internetdən istifadə olunub, ancaq biz özümüz internet ala bilməmişik. Bu məsələyə bir qədər spesifik yanaşmaq lazımdır. Ona görə də bütün o görülən işlərlə bərabər indiki halda bu sistemə yenidən baxmağa ehtiyac var. İlk növbədə baş verən problemin səbəbi tapılıb ortaya qoyulmalıdır ki, bu təxribatdır, yoxsa texniki problem. Hazırda əməliyyat qrupu orada təhqiqat aparır. Biz onlardan nə baş verməsi ilə bağlı cavab gözləyirik. İkincisi, "Delta Telekom" öz müştərilərinə nə baş verdiyi ilə bağlı açıqlama verməlidir. Bu təhqiqatın nəticələri açıqlandıqdan sonra "Delta Telekom" cavab verməlidir ki, qəzanın səbəbi nə idi. Bundan sonra isə elə bir sistem hazırlamaq lazımdır ki, oxşar hadisə baş verməsin, hər hansı nasazlıq olarsa alternativ mənbələr işə düşsün".

**Ekspert ölkənin informasiya təhlükəsizliyi ilə bağlı qanunvericiliyi və ona nəzarət edən qurumların səlahiyyətlərini təkrar gözdən keçirməyi tövsiyə etdi:** ""MTN işi" ilə bağlı da bizdə informasiya təhlükəsizliyi ilə bağlı məsələlər son dövrlərdə gündəmdə oldu. Mən düşünürəm ki, bu məsələlərə yenidən baxmaq lazımdır. Həmçinin informasiya təhlükəsizliyi ilə bağlı səlahiyyət bölgüsü aparılmalıdır. Məsələn, Xüsusi Dövlət Mühafizə Xidməti, Milli Təhlükəsizlik Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi-bu qurumlar arasında informasiya təhlükəsizliyi ilə bağlı müəyyən səlahiyyət bölgüsü var idi ki, bunlar yenidən nəzərdən keçirilməlidir. "Əməliyyat-axtarış tədbirləri haqqında" Qanunda informasiya təhlükəsizliyi ilə bağlı müəyyən müddəalar nəzərdə tutulub. Burada da elə etmək lazımdır ki, dövlət və ictimai təhlükəsizliyə xələl gəlməsin.

Hesab edirəm ki, yeni çağırış parlamentdə müzakirəyə çıxarılacaq ilk məsələlərdən informasiya təhlükəsizliyi və əməliyyat-axtarış tədbirləri bağlı olmalıdır".

**Mirzə Xəzərin səsləndirdiyi iddialara gəlincə, Osman Gündüz bildirdi ki, hazırda bu məsələ ilə bağlı Xüsusi Dövlət Mühafizə Xidməti, DİN, MTN-in peşəkar əməliyyatçıları orada təhqiqat aparırlar və bu haqda qabaqlayıcı bir fikir səsləndirmək düzgün olmaz:** "Əlbəttə, Azərbaycandakı mövcud situasiya baxımından orada təxribat faktoru istisna olunmaya bilər. Ancaq mən onu da deyim ki, "Delta Telekom" çox ciddi, standartlara cavab verən bir qurumdur. Dünyadakı tanınmış internet provayderləri ilə, təhlükəsizliyə cavab verən təşkilatlarla əməkdaşlıq edir. Yəni hər bir xırda hadisə "Delta Telekom"un tamamilə çökməsinə səbəb ola bilməzdi".

**Bu addımın hakimiyyət tərəfindən atılması iddiasını dəyərləndirən ekspert qeyd etdi ki, bu beynəlxalq aləmdə Azərbaycana divident gətirməyən bir hadisə idi:** "Mən xarici saytlardan da oxudum ki, Azərbaycan ciddi şəkildə tənqid olundu, ölkənin beynəlxalq aləmdən ayrılması qəribə qarşılandı. Onsuz da bu sistem hökumətin əlindədir və onlar istədikləri informasiyanı oradan götürə bilirlər. Bunun üçün Azərbaycanın internetinin kəsilməsi şərt deyil. Mən bu versiyanı o qədər də inandırıcı hesab etmirəm. BMT tərəfindən qanunda nəzərdə tutulan qaydada bizim telekommunikasiya sistemində altenativ bir şəbəkə, MTN-ə tabe olan və bütün bu telekommunikasiyanın keçdiyi bir sistem qurulub. Belə sistem bütün dünya ölkələrində var. Bu əməliyyat-axtarış tədbirləri nəzarəti gücləndirmək üçün həyata keçirilir. Bu sistem indi MTN-dən çıxıb və dövlətin nəzarətindədir. Düşünürəm ki, sistem onların nəzarətindədirsə, belə bir addım atmazlar".

❑ **Nərgiz LİFTİYEVA**

# Bayraq Meydanının sabiq rəhbəri Bakı sakinini evsiz qoyub

## İslam Abbasov: "Qanuni evimi söküb kompensasiya da vermədilər..."



**Bakı sakini İslam Aslan oğlu Abbasov, Xətai Rayon İcra Hakimiyyətindən şikayətçidir. Şikayətçi bildirir ki, icra nümayəndələri başda olmaqla, bir qrup məmur, onun qanuni evini sökərək lazımi kompensasiyanı ödəməyiblər. O, müxtəlif instansiyalardan cavab ala bilmədiyi üçün "Yeni Müsavat" qəzetinə müraciət etmək zorunda qaldığını bildirib.**

Şikayətçi başına gələnləri belə nəql edib: "27 mart 2015-ci il tarixində Xətai Rayon İcra hakimiyyətinin nümayəndələri Yusif Səfərov küçəsində parkın davamının tikintisi adı ilə mənim Sabit Orucov küçəsindəki ümumi sahəsi 150 kvadrat metr olan tam təmirli 5 otaqlı mənzilimi ailə üzvlərimin gözü qarşısında traktorla uçurdular. Bundan öncə isə heç bir sənəd təqdim etmədən kommunal xətlərimizi kəsmişdilər. Xətai rayon icra nümayəndələri dedilər ki, evdən çıxsanız da, çıxmasanız da sökəcəyik. Beləliklə, evimizi söküb həmin ərazini hasara aldılar. Mənzili sökən zaman əşyalarımıza da xeyli zərər dəydi. Manatın son devalvasiyasından qabaq söküləndaşınmaz əmlakımın qiymətləndirməsini çıxarmışam və bütün sənədlər də əlimdədir. Qiymətləndirməyə görə, mənzilin maddi dəyəri 240 min 100 manat olduğu halda, icra hakimiyyəti mənə 140 min 100 manat konpensasiya təklif edir. Deyirdilər ki, sökülən ərazi parka qatılacaq. Bəs nə üçün əlavə olunmayıb?"

**Şikayətçi iddia edir ki, onların mənzilinin olduğu ərazini hazırda barəsində həbs-qətimkan tədbiri seçilən Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin sabiq rəisi, "Azİmport" şirkətinin sahibi Rəşad Məmmədov alıb:** "Pulu buraxan "Azimport"un rəhbəri Rəşad Məmmədov olub. Baş verənlər Rəşadın şirkətinin işləridir. Ancaq güc kimi də Xətai Rayon İcra Hakimiyyətindən istifadə ediblər. Ərazidə evləri sökdülər, hasarlama apardılar. Sonra Rəşad saxlanıldı, indinin özündə də orada heç bir tikili inşa edilməyib. Elə hasarın içərisində qalıb. Orada mən iki uşağım, yoldaşımla birgə 10 il idi ki, yaşayırdım. Bütün sənədlərim də yerində olub. Onu da deyim ki, evi sökən zaman sarsıntı yaşayan bütün ailə üzvlərimin halı pisləşdi. Bu səbəbdən təcili yardım da çağırdıq. Əlimdə bunu da təsdiqləyən sənədlər var. Qısası, faciə yaşadıq. Gəlib qeyri-iş günü evimizi sökdülər və kənarda qalmam üçün də cəmi 3 ay kirayə haqqı verdilər. Sonra isə bunu da verməkdən imtina etdilər. Məsələ ilə bağlı lazımi instansiyalara müraciət etsəm də, problemin həlli istiqamətində heç bir müsbət addım atılmayıb".

Məsələ ilə bağlı qarşı tərəfin də mövqeyini öyrənməyə çalışdıq. İcra başçısının birinci müavini Rafiq Quliyevlə dəfələrlə telefon əlaqəsi qurmağa çalışsaq da, o, zənglərimizə cavab vermədi.

**P.S.** *Qarşı tərəfin də mövqeyini dərc edə bilərik.*

❑ **Əli RAİS**

YENİ MÜSAVAT

Son səhifə

N 259 (6287) 21 noyabr 2015



## Zəfəran bitkisinin faydaları

Zəfəranın insan orqanizminə də çox böyük faydaları var. Tibbi araşdırmalar nəticəsində məlum olub ki, zəfəran depressiya vəziyyətində olan insana müsbət təsir göstərir. Belə ki, zəfəranın müsbət təsirini yoxlamaq üçün 40 nəfər depressiyada olan insan arasında müşahidə aparılıb. Həmin insanlara 6 həftə ərzində hər gün yeməklərin üzərinə 30 qram zəfəran əlavə etməkləri məsləhət görülüb. 6 həftədən sonra həmin xəstələrdə depressiya əlamətlərinin azaldığı müşahidə edilib.

Zəfərandan ürək-damar xəstəliklərinin müalicəsində də istifadə edilir. Araşdırmalara görə, zəfəran antioksidant təsiri ilə qan təzyiqini normallaşdırır, damarlarda və ürəkdə əmələ gələn tromblaşmanı aradan qaldırır. Zəfəran bitkisi göz problemlərinin müalicəsində də böyük rol oynayır. Aparılan tibbi araşdırmalara görə, zəfəran bitkisi gözlə bağlı bir sıra infeksion xəstəliklərin müalicəsində də mühüm təsirə malikdir.

# Belə uşaqlar daha ağıllı olur

Qallerdəki Kardiff Universitetinin apardığı araşdırma nəticəsində məlum olub ki, səhər yeməyi yeyən uşaqlar yeməyən uşaqlara nisbətən daha çox uğurlar əldə edir. 9-11 yaşlı 5 min uşaq üzərində aparılan araşdırmaya görə, səhər yeməyi ilə ibtidai sinif uğurları arasında birbaşa əlaqə var. Buna görə də evdə və ya məktəbdə səhər yeməyi yeyən uşaqlar normaldan 2 dəfə çox nailiyyət əldə edirlər. Lakin mütəxəssislər sözügedən nəticəni yaxşı və keyfiyyətli səhər yeməyindən sonra əldə etməyin mümkün olduğunu söyləyirlər. Araşdırmaçı mütəxəssislərdən Hannah Littlecott ağır və yağlı səhər yeməyinin uşaqlara xeyri olmadığını deyiblər.



# Əsrin ən böyük almazı

Bosvandakı bir almaz mədənindən son yüz ilin ən böyük almazı çıxarılıb. Mərkəzi Kanadada olan Lukara şirkətindən verilən açıqlamada bir almaz mədənindən 1111 karatlıq almaz tapdıqları iddia edilib. Yeni çıxarılan almazın bu günə qədər çıxarılan ikinci ən böyük almaz olduğu və ölçülərinin 6,5 sm, 5,6 sm və 4 sm olduğu bildirilir. Şirkət eyni mədəndə 813 karat və 374 karatlıq daha iki almaz tapdığını bildirib. Dünyanın ən böyük almazı 1905-ci ildə Afrikada kəşf edilən 3106 karatlıq Cullinan almazıdır. Bu almazın kəsilən parçaları İngilis Krallıq ailəsinə aid qızıllar üçün istifadə edilib.






**QOÇ** - Təxminən saat 13-ə qədər ümumi əhvalınızda gərginlik müşahidə olunsa da, sonrakı müddəti normal şəkildə başa vura biləcəksiniz. Bütün iş və görüşlərinizdə Allahı yaddan çıxarmayın.

**BUĞA** - Hiss olunur ki, ətrafınızda olanların əksəriyyəti fikirlərinizə qarşıdır. Lakin bunu əsəbi şəkildə qəbul etməməlisiniz. Sübut edin ki, haqqınızda deyilənlər doğru deyil.

**ƏKİZLƏR** - Göstəricilər düşərli bir gün yaşayacağınızı bəyan edir. Xislətinizdən asılı olaraq ətrafda hər şey gözəl olacaq. Amma vaxt tapıb müqəddəs ziyarətgahlarımıza da baş çəkməyə çalışın.

**XƏRÇƏNG** - Hansısa xoşgəlməzlik haqqında düşünməyə dəyməz. Çünki ulduzların düzümü günün əksər saatlarını xoş ovqatda keçirəcəyinizi bildirir. Təzə xəbərlər və büdcədə artım da gözlənilir.

**ŞİR** - Həddindən ziyadə məhsuldar gündür. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Yeni təkliflərə razılıq verin. Əks təqdirdə, müttəfiqlərinizi itirəcəksiniz.

**QIZ** - Yeni simalarla rastlaşma ehtimalınız böyükdür. Ola bilsin ki, qarşılaşdığınız adamların bir çoxu mövcud problemlərinizin həllində əsaslı rol oynasın. Odur ki, buna hazır olun.

**TƏRƏZİ** - Ailə-sevgi münasibətlərində bütün proseslər ürəyinizcə olacaq. Bu səbəbdən də qarşı tərəfin rəylərinə hörmətlə yanaşmalısınız. Yeni sövdələşmələrdə təşəbbüskarlığı ələ alın.

**ƏQRƏB** - Yaxşı olar ki, vaxtınızı bütünlüklə münasibətlərin tənzimlənməsinə həsr edəsiniz. Çünki hesablamalar fəaliyyətdə passivliyin hökm sürəcəyini göstərir. Dini dəyərlərə hörmət edin.

**OXATAN** - O qədər də səmərəli təqvim deyil. Bir tərəfdən cəhdlərinizin boşa çıxması, digər tərəfdənsə səhhətinizlə bağlı problemlərin baş qaldırması əsəblərinizə mənfi təsir göstərə bilər.

**OĞLAQ** - Qərarlarınızda qətiyyətli olmasanız, qarşınıza çıxan mühüm şanslarınızı itirəcəksiniz. Risk etməkdən qorxmayın. Hər şeydən əlinizi üzəndə heç olmasa sevgi amilindən bəhrələnin.

**SUTÖKƏN** - Bəxtinizdə müəyyən qədər mübahisəli bir tarix durur. Odur ki, istər evdə, istərsə də iş yerində çılğınlıqdan uzaq olmalısınız. Konflikt yaratmaqdansa, barışdırıcı mövqe seçin.

**BALIQLAR** - Dünən axşamdan mənfi enerjili Ay bürcünüzdə omasına baxmayaraq, ayın ən dəyərli gününü yaşayacaqsınız. Atdığınız addımlar ətrafda sizə qarşı rəğbət yaradacaq. Ac qalmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Şimpanze təqaüdə çıxdı

ABŞ-dakı Beynəlxalq Səhiyyə İnstitutunun bir neçə gün əvvəl etdiyi açıqlamaya görə, bundan sonra şimpanzelərdən təcrübələrdə istifadə edilməyəcək. Bildirilir ki, hazırda istifadə olunan 20 şimpanze cinsindən olan meymun sığınacaqlara göndərilib və bir da alimlərin təcrübələrində istifadə olunmayacaq. Heyvan haqları müdafiəçiləri 98% insan geninə bənzəyən genlərə sahib şimpanzelərin insanlarla eyni haqlara sahib olduqlarını iddia edir, bu məsələnin qanun halına salınmasını tələb edirlər.




Şimpanzelər Amerikanın Balıq və Vəhşi Heyvan İnstitutu tərəfindən nəsli tükənməkdə olan heyvanlar siyahısına salınıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300